# İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması

Texniki kitabça 1



unicef

**© BMT-nin Uşaq Fondu (UNICEF) 2020 (2-ci nəşr)**
**İlk dəfə 2014-cü ildə nəşr edilmişdir.**

Müəllif haqqında: Emi Farkas inklüziv inkişaf və əlillərin hüquqları üzrə mütəxəssisdir. O, UNİCEF-in Baş Qərargahında Əlillik Bölməsinin Əlilliyi olan Uşaqlar üzrə Tərəfdaşlıq və Proqram Məsələləri Mütəxəssisi kimi çalışıb və əlilliyi olan uşaqların hüquqlarının yaxşılaşdırılması sahəsində çalışan müxtəlif beynəlxalq QHT-lərlə əməkdaşlıq edib. O, Əlillik Problemlərinin Tədqiqi üzrə magistr elmi dərəcəsinə malikdir.

Bu vəsaitin hər hansı bir hissənin təkrar nəşri üçün icazə tələb olunur. Təhsil və qeyri-kommersiya təşkilatlarına icazə ödənişsiz təqdim edilir. Digərləri isə kiçik rüsum ödəməlidir.

Əlaqələndirmə: Paula Frederika  Hant
Redaktə: Stefen Boyl
Tərtibat: Kamilla Tuve Etnan

Əlaqə: Divison of Communication, UNİCEF,
Kimə: Permissions, 3 BMT Plaza, Nyu-York, NY 10017, USA, Tel: 1-212-326-7434;
e-mail: nyhqdoc.permit@unicef.org

Avstraliya Beynəlxalq İnkişaf Agentliyinə ("Australian Aid") UNİCEF və onun əlilliyi olan uşaqların və şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində fəaliyyət göstərən tərəfdaşlarına göstərdiyi dəstəyə görə təşəkkür edirik! "Hüquqlar, Təhsil və Müdafiə üzrə Tərəfdaşlıq" (REAP) layihəsi UNİCEF-in bütün uşaqların hüquqlarının müdafiəsi üçün təşviqat aparmaq və onların öz tam potensiallarına çatması üçün imkanları artırmaqla bağlı vəzifəsinin həyata keçirilməsinə töhfə verir.

Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi ilə UNICEF tərəfindən icra olunan “Azərbaycanda əlilliyi olan uşaqlar üçün inklüziv təhsilin genişləndirilməsi” layihəsi çərçivəsində tərcümə edilmiş və yenidən nəşr edilmişdir (2020).

# İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması


Bu kitabçadan necə yararlana bilərsiniz? 4

İxtisarların siyahısı 6

I. Giriş 7

II. Əlilliyi olan uşaqlar üçün təhsil mühitinin vəziyyəti barədə ümumi məlumat 9

III. Əlilliyi olan uşaqlar üçün inklüziv təhsil konsepsiyası 11

Əlillik Nədir? 11

Əlilliyi olan uşaqların inklüziv təhsili ilə bağlı müvafiq insan hüquqları standartları 13

Hamı üçün təhsil 15

Əlilliyi olan uşaqların təhsilinə yanaşmalar 18

Xüsusi təhsil 19

İnklüziv təhsil 19

IV. İnklüziv təhsil niyə vacibdir: İnklüziv təhsilin əsaslandırması 24

Hamı üçün təlim nəticələrinin yüksəldilməsi - TƏHSİL baxımından əsaslandırma 24

Bütün uşaqlar faydalanır - SOSİAL əsaslandırma 24

Xərc baxımından səmərəlidir - İQTİSADİ əsaslandırma 25

V. İnklüziv təhsilə necə nail ola bilərik? 27

İnklüziv təhsil hüququnun təşviqi üçün konseptual çərçivə 27

VI. İnklüziv təhsilin UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması 33

UNİCEF-in Əlillik Gündəliyi 33

UNİCEF-in Təhsil Gündəliyi 34

UNİCEF-in əlilliyi olan uşaqlar və inklüziv təhsillə bağlı cari fəaliyyəti 37

Tərəfdaşlarımız 38

VII. Tez-tez verilən bir neçə suala cavab 41

VIII. Gələcək addımlar 42

Əlavə Resurslar 44

Terminlərin izahlı lüğəti 45

Əlavə 1: Əsas beynəlxalq alətlər və digər sənədlər 47

Haşiyələr 48

# Bu kitabçadan necə yararlana bilərsiniz?

Bu kitabçanın məqsədi tərəfdaşlarımıza əsas diqqəti əlilliyi olan uşaqlara yetirməklə, inklüziv təhsilin əsas anlayışlarını və onun UNİCEF-in missiyası ilə necə uzlaşdığını anlamaqda kömək etməkdir.

**Bu kitabçada siz aşağıdakıları öyrənəcəksiniz:**

- *İnklüziv təhsil nəyə görə vacibdir?*
- *İnklüziv təhsil nədir və nə deyil?*
- *İnklüziv təhsil UNİCEF-in missiyası, onun əlillik və təhsillə bağlı gündəlikləri ilə necə uzlaşır?*
- *UNİCEF-in son dövrlərdə qlobal və regional səviyyələrdə inklüziv təhsillə bağlı fəaliyyətləri*

İnklüziv təhsil üzrə proqramların hazırlanması ilə bağlı daha ətraflı istiqamətləndirici məlumatlar üçün, bu seriyaya daxil olan aşağıdakı kitabçaları nəzərdən keçirə bilərsiniz:

1. İnklüziv təhsilin konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması (*bu kitabça*)
2. Əlilliyin tərifi və təsnifatı
3. İnklüziv təhsil üzrə siyasətlər və qanunvericilik
4. Uşaqların əlilliyi ilə bağlı məlumatların toplanması
5. Məktəbdən kənarda qalan əlilliyi olan uşaqların müəyyənləşdirilməsi
6. Təhsil İdarəçiliyi üzrə Məlumat Sistemi (TİMS) və əlilliyi olan uşaqlar
7. Sosial dəyişiklik naminə tərəfdaşlıq, təşviqat və kommunikasiya
8. İnklüziv təhsilin maliyyələşdirilməsi
9. İnklüziv məktəbəqədər proqramlar
10. Məktəb və təlim mühitinə çıxış imkanı I - Fiziki, informasiya və kommunikasiya
11. Məktəb və təlim mühitinə çıxış imkanı I - Universal Təlim Dizaynı
12. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika
13. Valideynlərin, ailələrin və icmanın inklüziv təhsildə iştirakı
14. Planlaşdırma, Monitorinq və Qiymətləndirmə

## Bu kitabçadan necə istifadə etməli?

Bu sənəddə siz hər bölmə üzrə əsas məqamların xülasəsini əks etdirən, nümunəvi keysləri təsvir edən və əlavə oxuya biləcəyiniz materialları tövsiyə edən qutular görəcəksiniz. Mətnlərdə açar sözlər qalın hərflərlə vurğulanır və sənədin sonundakı izahlı lüğətdə təqdim olunur.



# İxtisarlar

| | |
|---|---|
| **APDC** | Əlilliyi olan Uşaqların Valideynlərinin Assosiasiyası |
| **İƏR** | İcma Əsaslı Reabilitasiya |
| **CEDAW** | “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya |
| **UYM** | Uşaqyönümlü Məktəblər |
| **UHK** | “Uşaq hüquqları haqqında” Konvensiya |
| **ƏŞHK** | “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiya |
| **HÜT** | Hamı üçün təhsil (“Education for all”) |
| **TİMS** | Təhsil İdarəçiliyi üzrə Məlumat Sistemi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ƏUQT** | Əlilliyi olan Uşaqlar üzrə Qlobal Tərəfdaşlıq |
| **GPE** | Təhsil üçün Qlobal Tərəfdaşlıq |
| **İHY** | İnsan Hüquqlarına Əsaslanan Yanaşma |
| **FBT** | Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı |
| **IDA** | Beynəlxalq Əlillik İttifaqı |
| **IDDC** | Beynəlxalq Əlillik və İnkişaf Konsorsiumu |
| **İT** | İnklüziv təhsil |
| **ITQ** | İnklüziv Təhsil Qrupu |
| **İƏİT** | İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı |
| **BMT İHAK** | BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığı |
| **MİM** | Minilliyin İnkişaf Məqsədi |
| **DİM** | Dayanıqlı İnkişaf Məqsədi |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **UNESCO** | BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| **UNICEF** | BMT-nin Uşaq Fondu |

# I. Giriş

Hər bir uşağın onun ləyaqətinə hörmət edən və optimal inkişafına töhfə verən keyfiyyətli təhsil almaq hüququ UNİCEF-in təhsilə insan hüquqları əsaslı yanaşmasının təməlində durur. Keyfiyyətli təhsil hər bir uşağın hüququdur. **"Uşaq hüquqları haqqında" Konvensiya** və **"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya** hamı üçün keyfiyyətli təhsilin təmin olunmasını və hər bir uşağın potensialını inkişaf etdirmək üçün tələb olunan hərtərəfli dəstəyin təmin edilməsinin vacibliyini məqsəd kimi aydın ifadə edir. Keyfiyyətli təhsilə yalnız o zaman nail olmaq olar ki, hər bir uşaq, o cümlədən təcrid olunmuş və kənarda qalmış uşaqlar məktəbə gedərək keyfiyyətli inklüziv təhsil alır və bu təhsil onları həyat üçün tələb olunan biliklərlə təmin edir.

**İnklüziv təhsil** uşaqların bütün qruplarını əhatə edən geniş bir konsepsiya olsa da, bu vəsaitdə biz diqqəti xüsusi olaraq əlilliyi olan uşaqlara yetiririk. Lakin UNİCEF-in təhsil sahəsində proqramı uşaqların bütün qruplarını əhatə edir və təhsildən kənarda qalma riski ilə üzləşən uşaqlara xüsusi diqqət yetirir.

**Əlillik** nadir fenomen deyil və insan müxtəlifliyinin tərkib hissəsidir. Təqribi hesablamalara görə, dünya əhalisinin 15 faizi əlilliyə malikdir[1]. Həyatın erkən mərhələlərində zəif tibbi xidmət və qidalanma, yaşlı əhalinin artması və zorakı münaqişələr səbəbilə bu göstəricinin artacağı gözlənilir[2]. Münaqişə nəticəsində xəsarət alan və ya ömürlük əlil olan uşaqların sayı həyatını itirən uşaqların sayından üç dəfə çoxdur[3]. Əlilliyi olan şəxslərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır və yoxsulların bu göstəricidə payı qeyri-mütənasib dərəcədə yüksəkdir[4]. Bu önəmlidir, çünki əlillik yalnız fərdlərə deyil, onların ailələrinə, onlara qulluq göstərənlərə də təsir edir.

Həmçinin məlumdur ki, əlilliyi olan uşaqlar çoxsaylı ayrı-seçkilik formaları ilə üzləşir ki, bu da onların cəmiyyətdən və təhsildən təcrid olunmasına səbəb olur. Məsələn, əlilliyi olan qızlar xüsusilə həssas vəziyyətdədir və bu, onların gender əsaslı zorakılıq, cinsi zorakılıq, baxımsızlıq, pis rəftar və istismarla üzləşmə riskini artırır[5].

Əlilliyi olan uşaqlara münasibətlər, habelə inklüziv təlim mühitlərinin olmaması və üstəlik zəruri resurs və informasiya çatışmazlığı onların təhsildən istifadə ilə bağlı çətinliklərini daha da ağırlaşdırır.[6] [7] Buna görə də, təhsildən kənarda qalan uşaqların arasında əlilliyi olan uşaqların payı qeyri-mütənasib dərəcədə yüksəkdir.[8] [9]

Müsbət məqam isə ondan ibarətdir ki, həm əlilliyi olan, həm də əlilliyi olmayan uşaqların bərabər əsaslarla öz hüquqlarından, o cümlədən keyfiyyətli təhsil hüquqlarından istifadə edə biləcəyi inklüziv cəmiyyət qurmaq üçün effektiv yollar mövcuddur. Bu yollardan bəzilərinə bu vəsaitdə nəzər salınacaq və bir çox digər yollar isə növbəti kitabçalarda əhatə olunacaq. Lakin fiziki və siyasi əngəllər, mənfi münasibətlər, o cümlədən mənfi stiqma və ayrı-seçkiliyin aradan qaldırılması çox vacibdir.[10]

UHK və ƏŞHK konvensiyalarına və UNİCEF-in missiyasına uyğun olaraq, UNİCEF hər bir uşağın keyfiyyətli təhsil almasını təmin etmək üçün inklüziv təhsil yanaşmasını tətbiq edir. Salamanka Bəyannaməsinə əsasən, inklüziv təhsil "hamı üçün məktəblərə - fərqliliklərə dəyər verən, öyrənməni dəstəkləyən və fərdi ehtiyacları nəzərə alan məktəblərə nail olmaq üçün səylərin göstərilməli olduğunu" təşviq edir.[11] İnklüziv təhsil bütün şagirdlərin rifahına dəyər verən bir prosesdir və özü özlüyündə son nəticə deyil.

## Xülasə

- ***İnsan hüquqlarına əsaslanan yanaşmaya*** *əsasən, BÜTÜN uşaqlar inklüziv təhsil hüququna malikdir.*
- *UHK, ƏŞHK və UNİCEF-in missiyasına uyğun olaraq, habelə təşkilatın ədalətliliyə verdiyi əhəmiyyəti nəzərə alaraq, UNİCEF hər bir uşağın keyfiyyətli təhsil almasını təmin etmək üçün inklüziv olması məqsədilə təhsil sistemlərinin gücləndirilməsini təşviq edir.*
- *UNİCEF əlilliyi olan uşaqların ən inklüziv şəraitdə təhsil almaq hüquqlarını reallaşdırmaq üçün çox zaman hökumətlər, donorlar və vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edir.*
- *Əlilliyi olan və olmayan uşaqların öz hüquqlarından, o cümlədən keyfiyyətli təhsil almaq hüququndan bərabər əsaslarla istifadə edə bildiyi inklüziv cəmiyyətlər qurmaq üçün effektiv vasitələr mövcuddur.*



# II. Əlilliyi olan uşaqlar üçün təhsil mühitinin vəziyyəti barədə ümumi məlumat

## Əsas məqamlar

- *Əlillik uşaqların təhsildən təcrid olunmasına səbəb olan əsas amillərdən biridir və nəticədə məktəbdən kənarda qalan uşaqlar arasında əlilliyi olan uşaqların payı qeyri-mütənasib dərəcədə yüksəkdir.*
- *Son onilliklərdə "hamı üçün təhsil" istiqamətində irəliləyiş əldə olunsa da, bir sıra əhəmiyyətli boşluqlar qalmaqdadır - xüsusilə əlilliyi olan uşaqların təhsilə cəlb olunmasında.*
- *Təhsil ilə əlaqəli siyasətlər çox zaman əlilliyi olan uşaqları kənarda qoyur.*

Təhsil - əlilliyi olan uşaqların və onların ailələrinin tez-tez üzləşdiyi ayrı-seçkilik zəncirini qırmaq üçün ən effektiv yollardan biridir.[12]

Əlilliyi olan uşaqlar digər uşaqlarla eyni hüquqlara malik olsa da, tarixən onlar təhsil sistemindən ən çox təcrid olunan qrup olmuşdur. Hazırkı vəziyyəti əks etdirən bəzi faktlar aşağıda təqdim olunur:

- Əlilliyi olan uşaqların məktəbə yazılmaq ehtimalı əlilliyi olmayan yaşıdları ilə müqayisədə xeyli aşağıdır.[13] Bir sıra tədqiqatlarda bu faktı əks etdirən nəticələr aşağıda təqdim olunur:
  - Tədqiqatlardan birində müəyyən olunmuşdur ki, Filippində ailədə əlilliyi olan üzvün olması 7-16 yaşlı uşaqların heç vaxt məktəbə getməməsi ehtimalını 25 faiz artırır. Uqandada isə bu göstərici 13 faizdir.[14]
  - Tanzaniya Birləşmiş Respublikasında 2008-ci ildə aparılmış bir sorğu zamanı müəyyən edilib ki, ibtidai təhsil alan əlilliyi olan uşaqlar arasında ibtidai təhsildən daha yüksək təhsil səviyyəsinə keçən əlilliyi olan uşaqların xüsusi çəkisi əlilliyi olmayan uşaqların müvafiq göstəricisinin yarısına bərabərdir.[15]
  - 2017-ci il üzrə rəsmi statistikaya əsasən Azərbaycanda 72.000 nəfər əlilliyi olan uşaq qeydiyyata alınmışdır və müvafiq sosial müavinətlərlə təmin olunur (Dövlət Statistika Komitəsi 2017). UNICEF-in hesablamalarına görə həmin il üçün bu uşaqlardan təxminən 43.000 nəfər məktəbli yaşında idi. 2016-2017-ci tədris ilində yalnız 14.638 nəfər əlilliyi olan uşaq xüsusi məktəblərə (2.558 nəfər) və internat məktəblərinə (2.725 nəfər) qəbul edilmişdir və ya evdə təhsilə (9.355 nəfər) cəlb olunmuşdur. Bu isə o deməkdir ki, həmin il əlilliyi olan uşaqların yalnız üçdə biri müəyyən növ və ya inklüziv təhsil alırdı.
  - 2006-cı ildə İraqda aparılmış bir tədqiqat müəyyən etmişdir ki, əlillik riski olmayan 6-9 yaşlı uşaqların 10 faizi məktəbə heç vaxt getməyib. Lakin eşitmə məhdudiyyəti olma riski olanların 19%-i, psixi əlillik riski olanların isə 51%-i heç vaxt məktəbə getməyib.[16]

- Tailandda aparılmış bir tədqiqat müəyyən edib ki, əlilliyi olmayan demək olar ki, 6-9 yaşlı bütün uşaqlar 2005-2006-cı illərdə məktəbə getsə də, yerimə və ya hərəkət məhdudiyyəti olanların 34 faizi heç vaxt məktəbə getməyib.[17]
- 2004-cü ildə Malavidə aparılmış bir tədqiqat müəyyən edib ki, əlilliyi olan uşağın heç vaxt məktəbə getməmə ehtimalı əlilliyi olmayan yaşıdları ilə müqayisədə iki dəfə yüksəkdir.[18]

- Əlillik çox zaman gender və ya coğrafi yerləşmə ilə müqayisədə təhsildən təcrid olunmaya səbəb olan daha önəmli amildir və yoxsulluq içində yaşamaq, əlilliyi olan valideynə malik olmaq da uşağın məktəbə getməmə ehtimalını artırır.[19] [20]
  - Əlilliyi olan uşaqların məktəbə getməməsinin digər səbəblərinə isə aşağıdakılar daxildir, lakin bununla məhdudlaşmır: valideynlər öz uşağının təhsil hüququndan xəbərsizdir, valideynlərin öz uşağından gözləntiləri aşağıdır, ailələr əlilliyi olan uşaqlarından xəcalət çəkir, onların potensialına inanmır, uşaq müəssisədə yerləşdirilib və məktəbin binasına giriş mümkün deyil.[21] [22]
- Bu vaxta qədər ibtidai təhsil yaşında olan məktəbə getməyən uşaqların sayı ilə bağlı tədqiqatlarda əlilliyi olan uşaqlar adekvat səviyyədə nəzərdən keçirilmirdi. Buna görə də, məktəbə getməyən əlilliyi olan uşaqların sayı ən yaxşı halda çox təqribi bir rəqəmdir.[23]
- Əlilliyi olan uşaqlar təhsillə əlaqəli önəmli siyasətlərdən kənarda qalır.
  - Ayrı-seçkiliyə yol verən qanunvericilik çox zaman əlilliyi olan uşaqların nəzərə almır və ya onların təhsil almasına imkan vermir.[24]
  - Məlumatların toplanması işinin zəifliyi və siyasətçilərin əlilliyi olan uşaqların təhsilə necə cəlb olunması ilə bağlı biliklərinin olması səbəbindən milyonlarla əlilliyi olan uşaqlar təhsil sektoru üzrə planlardan kənarda qalır.[25]
- Əlilliyi olan uşaqlar "Hamı üçün Təhsil" təşəbbüsünün (HÜT) məqsədləri və 2-ci Minilliyin İnkişaf Məqsədlərinin təşviq etdiyi ibtidai təhsilə universal çıxış imkanına nail olmaq üçün göstərilən səylərdən nisbətən kənarda qalıb.[26]

Bugünkü vəziyyətə necə gəlib çıxmağımız, inklüziv təhsilin mövcud problemləri hansı yollarla aradan qaldırması və onun UNİCEF-in missiya və fəaliyyət istiqamətləri ilə necə uzlaşması aşağıdakı bölmələrdə öz əksini tapır.

## Daha ətraflı məlumat üçün:

- ***UNICEF-in "Dünya uşaqlarının vəziyyəti" (State of the World's Children Report) hesabatı**, 2013.* (http://www.unicef.org/sowc2013/)
- **Əlilliyi olan uşaqların təhsil hüququ**: *İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma UNICEF, 2012.* (*http://www.unicef.org/disabilities/files/UNICEF_Right_to_Education_Children_Disabilities_En_Web.pdf*)
- **Əlilliyi olan uşaqlar üçün təhsil** - *Əlçatanlığın və keyfiyyətin yaxşılaşdırılması. Sənədi Beynəlxalq İnkişaf Departamentindən əldə etmək olar, Birləşmiş Krallıq, 2010.* (*http://www.dfid.gov.uk/Documents/publications1/edu-chidisabil-guid-note.pdf*)

# III.Əlilliyi olan uşaqlar üçün inklüziv təhsil konsepsiyası

**Əsas məqamlar**

- *Əlillik insanlar arasındakı müxtəlifliyin tərkib hissəsidir və əlilliyi olan insanlar özləri heterogen qrupdur; təşviqat və proqram fəaliyyətimizi planlaşdırarkən, əlilliyi olan uşaqların çoxaspektli təcrübələri nəzərdən keçirilməlidir.*
- *UNİCEF əlillik konsepsiyasının sosial modelini rəhbər tutur. Bu model əlilliyi şəxsin sahib olduğu məhdudiyyətlərlə ətraf mühit arasındakı qarşılıqlı təsirin nəticəsi kimi izah edir.*
- *UNİCEF hər bir uşağın təhsil hüququnu reallaşdırmaq üçün inklüziv təhsili təşviq edir.*
- *"Hamı üçün təhsil" hərəkatı və Minilliyin İnkişaf Məqsədləri hər bir uşaq üçün universal təhsil məsələsinin ön plana çəkilməsində mühüm rol oynayıb. Bununla belə, nəzərəçarpan nəticələr əldə etmək üçün əlilliyi olan uşaqlara daha çox diqqət yetirilməlidir.*

## Əlillik nədir?[27]

ƏŞHK-nin 1-ci maddəsində əlilliyi olan şəxslər aşağıdakı kimi müəyyən edilir: "müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar".[28]

Bu yanaşma Ümumdünya Səhiyyə Təşkilatının **Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı** ilə də uzlaşır. Bu təsnifatda şəxsin funksionallıq səviyyəsi onun sağlamlıq vəziyyəti, ətraf mühit faktorları və şəxsi faktorlar arasındakı dinamik qarşılıqlı əlaqə kimi izah olunur. [29] O, funksional fəallığı və əlilliyi aşağıdakılarla bağlı olan çoxaspektli məfhumlar kimi təqdim edir:

- İnsan orqanizminin funksiyaları və strukturları.
- İnsanın məşğul olduğu fəaliyyətlər və iştirak etdiyi həyat sahələri.
- Ətraf mühitdə bu təcrübələrə təsir edən faktorlar.

Bu yanaşmalar fərdlərin cəmiyyətdə səmərəli iştirakına şəraitin yaradılması və ya bunun qarşısının alınmasında ətraf mühitin və kontekstin önəmini qəbul edir. Buna əlilliyin sosial modeli də deyilir.

Əlilliklə bağlı düşüncələr zamanla kifayət qədər təkamül edib. Tarixən əlillik konsepsiyasına dair üç əsas yanaşma mövcud olub:

- **Xeyriyyə modeli:** Ən qədim və vaxtı keçmiş model "xeyriyyə modelidir". Bu modeldə əlillik allahın müdaxiləsi nəticəsində baş verən cəza və ya facia hesab edilir. Bu modeldə insana yazıq kimi baxılır və hesab edilir ki, o, başqalarının mərhəməti, sevgisi və qayğısı ilə xilas ola bilər.

- **Tibbi model:** Tarixdə yaranmış sonrakı model isə "tibbi model"dir. Bu model əlilliyi tibb mütəxəssislərinin yardımı ilə müalicə olunmalı vəziyyət kimi izah edir.
- **Sosial model:** Son dövrlərdə, əlilliyi olan şəxslərin iştirakına mane olan əngəllər daha yaxşı başa düşüldüyündən, sosial model meydana çıxdı. Bu model hesab edir ki, əlillik konkret fiziki, əqli, hissi və ya psixi sağlamlıq pozuntularına sahib olan şəxslə onu əhatə edən sosial və mədəni mühit arasındakı qarşılıqlı təsirlərin nəticəsidir. Buna görə də, əlillik cəmiyyətdə mövcud olan münasibətlər və ətraf mühitlə bağlı olan və institusional xarakterli maneələrlə müşayiət olunan sosial-siyasi konsept hesab edilir.[30] Bu, həmçinin insan hüquqlarına əsaslanan yanaşma və ya əlillik konsepsiyasının insan hüquqları modeli ilə uzlaşır.

Son on illər ərzində əlilliyin sosial modelinə doğru paradiqma dəyişikliyi ilə əlaqədar olaraq, məlum oldu ki, ibtidai təhsildən tutmuş ali təhsilədək inklüziv, maneəsiz təhsil sistemi yanaşması əlilliyi olan uşaqların keyfiyyətli təhsil almasına, habelə digər yaşıdları ilə bərabər əsaslarla təhsildə iştirak etməsinə imkan verməyən maneələri azaldacaqdır. Aşağıdakı qutularda əlilliklə bağlı düşüncələrə təsir göstərmiş müxtəlif paradiqmalar öz əksini tapır. Modellərlə bağlı daha ətraflı məlumat üçün kitabçanın sonundakı terminlərin izahlı lüğətinə nəzər salın.

**Əlilliyin xeyriyyə modeli** - Rifah allahın və ya taleyin əllərindədir.

- Əlillik cəza və ya faciədir.
- Şəxsə yazıq, məğmun, hətta təqsirkar kimi baxılır.
- Xilas yalnız mərhəmət, sevgi və qayğı yolu ilə mümkündür.

**Əlilliyin tibbi modeli** - Rifah həkimlərin əllərindədir.

- Əlillik fərdin sahib olduğu və müalicə olunmalı sağlamlıq vəziyyətidir.
- Fərdin xəstəliyinin müalicə olunmasına və ya idarə edilməsinə ehtiyacı var.
- Ağrını yüngülləşdirmək tibb mütəxəssisinin öhdəliyidir və bunu yalnız o bacarar.

**Əlilliyin sosial modeli** - Rifah cəmiyyətin əllərindədir.

- Əlillik sosial problemdir.
- Şəxsə sosial mühakimənin qurbanı kimi yanaşılır.
- Cəmiyyətin öhdəliyi maneələri aradan qaldırmaqdır.

Əlillik insanlar arasındakı müxtəlifliyin bir hissəsidir və əlilliyi olan insanların heterogen qrup olduğunu yadda saxlamaq lazımdır. Ayrı-seçkilik, inteqrasiya və uşaq inkişafı məsələləri əlilliyin növü, ətraf mühit, mədəniyyət, ənənələr, gender və şəxsin sosial-iqtisadi statusundan asılı olaraq xeyli fərqli ola bilər. Əlilliklə bağlı təşviqat və proqramlarımızı formalaşdırarkən, əlilliyi olan uşaqların bu fərqlilikləri və çoxaspektli təcrübələri nəzərə alınmalıdır.

## Əlilliyi olan uşaqların inklüziv təhsili ilə bağlı müvafiq insan hüquqları standartları

1989-cu ildə qəbul edilmiş "Uşaq hüquqları haqqında" Konvensiya uşaqların sosial, iqtisadi, mədəni, mülki, siyasi və müdafiə hüquqlarını əhatə edən hərtərəfli insan hüquqları sazişidir və uşaqların fikirlərinin nəzərə alınmalı olduğunu bəyan edən ilk saziş olmuşdur. [31] Konvensiyada həm bərabər imkanlarla təhsil almaq hüququ, həm də uşağın mümkün ən yüksək inkişafının təşviqi baxımından təhsilin geniş məqsədləri vurğulanır. 2-ci maddə ilk dəfə olaraq hər bir uşağın bütün hüquqlarının başqa əlamətlərlə yanaşı əlillik əlaməti üzrə ayrı-seçkilik olmadan təmin edilməsi öhdəliyini birbaşa hökumətlərin üzərinə qoyur. 23-cü maddədə əlilliyi olan uşaqların onların cəmiyyətə qoşulmasına imkan verən şəkildə təhsildən istifadə etmək imkanını təmin etmək üçün yardım almaq hüququ əhatə olunur.[32] Uşaq Hüquqları üzrə Komitə "Əlilliyi olan uşaqların hüquqları haqqında" 9 saylı Ümumi Şərhdə vurğulamışdır ki, inklüziv təhsil əlilliyi olan uşaqların təhsilinin məqsədi olmalıdır[33].

2007-ci ildə qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada yeni hüquq təqdim olunmadı. Əlilliyi olan şəxslər digərləri ilə eyni hüquqlara malikdir. Lakin Konvensiya bu hüquqları bir daha təsdiq etdi və hökumətlərin üzərinə bu hüquqları reallaşdırmaq üçün əlavə öhdəliklər qoydu. ƏŞHK-da təhsil hüququ ilə bağlı geniş müddəalar mövcuddur (24-cü maddə). Burada UHK ilə müqayisədə daha konkret şəkildə qeyd olunur ki, "bütün səviyyələrdə inklüziv təhsil sistemi"nin təmin edilməsi hökumətlərin öhdəliyidir. Konvensiya həmçinin əlilliyi olan şəxslərin, o cümlədən uşaqların hüquqlarının həyata keçirilməsinə mane olan əngəllərin aradan qaldırılması və əlilliyi olan uşaqların öz hüquqlarını tələb etmək üçün daha effektli müdafiə və güclü mövqeyə malik olmasını təmin etmək üçün bir sıra öhdəliklər də müəyyən etmişdir. [34] ƏŞHK inklüziv təhsili konkret olaraq hüquq kimi təşviq edən ilk beynəlxalq hüquqi sənəddir.

1979-cu ildə qəbul edilmiş "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW) dövlətlərdən xüsusən "dərs vəsaitlərinə və məktəb proqramlarına yenidən baxmaq və tədris metodlarını uyğunlaşdırmaq yolu ilə, təhsilin bütün səviyyələrində və formalarında kişi və qadınların rolları ilə bağlı hər hansı stereotip konseptlərin aradan qaldırılması"nı tələb edən daha bir önəmli sazişdir.[35]

UHK, ƏŞHK və CEDAW-ın daha ətraflı təhlili ilə tanış olmaq üçün bax: UNİCEF-in "*Əlilliyi olan insanların hüquqlarının təşviqi üçün insan hüquqları çərçivəsindən istifadə, Müzakirə sənədi*" nəşri, onlayn keçid: http://www.unicef.org/disabilities/files/Synergies_paper_V6_Web_REVISED.pdf. Təhsilin UHK (Maddə 28) və ƏŞHK (Maddə 24) konvensiyalarında necə əhatə olunduğunu müqayisə etmək üçün UNİCEF-in "*Uşaqların təhsil hüququ: İnklüziv təhsilə hüquqlara əsaslanan yanaşma, Mövqe sənədi (2012)*" adlı nəşrinə nəzər salın: onlayn keçid: http://www.unicef.org/disabilities/files/UNICEF_Right_to_Education_Children_Disabilities_En_Web.pdf.

"Uşaq hüquqları haqqında" Konvensiyanın tam mətni: http://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx . "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın tam mətni: http://www.un.org/disabilities/default.asp?navid=14&pid=150. ƏŞHK-ni imzalamış və ya ratifikasiya etmiş dövlətlərin siyahısı ilə tanış olmaq üçün bax: http://www.un.org/disabilities/countries.asp?id=166

## İnklüziv təhsil üçün hüquq çərçivəsi[36]

- **2014:** Keyfiyyətli inklüziv təhsilə xüsusi diqqət yetirməklə, 2015-ci ildən sonrakı dövr üçün inkişaf çərçivəsi (Dayanıqlı İnkişaf Məqsədləri) ilə bağlı danışıqlar davam edir
- **2006:** BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası *əlilliyi olan şəxslərin hüquqlarını və əlilliyin inkişaf proqramına inteqrə edilməsini təşviq edir*.
- **2001:** "Hamı üçün Təhsil" təşəbbüsünün konsepsiya sənədi: "Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüzivliyə doğru".
- **2000:** Ümumdünya Təhsil Forumunun Fəaliyyət Çərçivəsi, Dakar, "Hamı üçün Təhsil" Məqsədləri + MİM-lər *Bütün uşaqların 2015-ci ilədək tam pulsuz və icbari ibtidai təhsilə çıxışının və onu başa çatdırmasının təmin edilməsi. Təcrid olunan qruplara + qızlara xüsusi diqqət.*
- **1994:** Xüsusi Təhsil haqqında Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi
- **1993:** BMT-nin "Əlilliyi olan şəxslərin bərabərləşdirilməsi" haqqında Standart Qaydalarının 6-cı qaydası *sadəcə əlilliyi olan bütün uşaqların, gənclərin və yaşlıların təhsil hüququnu təsdiq etmir, həm də bəyan edir ki, təhsil "ümumi məktəbdə", "inteqrativ" məktəb mühitində təmin edilməlidir.*
- **1990:** Hamı üçün Təhsil haqqında Ümumdünya Bəyannaməsi (Comtyen Bəyannaməsi)
- **1989:** BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası *bütün uşaqların heç bir əsasla ayrı-seçkiliyə məruz qalmadan təhsil almaq hüququnu təmin edir.*
- ***1948:*** İnsan Hüquqları haqqında Ümumi Bəyannamə *bütün uşaqlar üçün pulsuz və icbari orta təhsil almaq hüququnu təmin edir.*



## Hamı üçün təhsil

**"Hamı üçün Təhsil"** hər bir uşağın və yetkinlik yaşına çatmış şəxsin yaxşı keyfiyyətli ilkin təhsil almasının təmin edilməsinə yönələn beynəlxalq hərəkat və öhdəlikdir. O, həm insan hüquqlarına, həm də fərdlərin rifahı və milli inkişafda təhsilin mərkəzi rol oynamasına olan ümumi inama əsaslanır. O, ilk dəfə Tailandın Comtyen şəhərində 1990-cı ildə Hamı üçün Təhsil üzrə Dünya Konfransında qlobal diqqəti özünə cəlb etmişdir. On il sonra, hökumətlərin "Hamı üçün təhsilin" reallaşdırılması istiqamətində irəliləməsinə kömək etmək üçün 6 “Hamı üçün Təhsil” (HÜT) məqsədi razılaşdırıldı.

Bu 6 EFA məqsədinə aşağıdakılar daxildir:

- Məqsəd 1: Erkən uşaqlıq dövründə qayğı və təhsili genişləndirmək
- Məqsəd 2: Hamı üçün pulsuz və icbari ibtidai təhsili təmin etmək
- Məqsəd 3: Gənclər və böyüklər üçün öyrənmə və həyat bacarıqlarını təşviq etmək
- Məqsəd 4: Böyüklər arasında savadlılığı artırmaq
- Məqsəd 5: Gender paritetinə nail olmaq
- Məqsəd 6: Təhsilin keyfiyyətini yaxşılaşdırmaq.

HÜT məqsədləri ilə paralel olaraq qəbul edilmiş Minilliyin İnkişaf Məqsədlərinin 2-ci Məqsədi "2015-ci ilədək hər yerdə həm qız, həm də oğlanların tam ibtidai təhsili başa vura bilməsini təmin etmək" idi.[37]

### Təhsil üzrə Minilliyin İnkişaf Məqsədi[38]

MƏQSƏD 2: ÜMUMİ İBTİDAİ TƏHSİLƏ NAİL OLMAQ

**Hədəf 2.A:** "2015-ci ilədək hər yerdə həm qız, həm də oğlanların tam ibtidai təhsili başa vura bilməsini təmin etmək"

**Vəziyyət**

- İnkişaf etməkdə olan regionlarda ibtidai təhsildə xalis qeydiyyat səviyyəsi 2000-2012-ci illərdə 83 faizdən 90 faizə yüksəldi ki, bu da, hər zamankından daha çox uşağın ibtidai təhsildə iştirak etdiyini göstərir.[39]
- 2011-ci ildə ibtidai təhsil yaşında olan 58 milyon uşaq məktəbə getmirdi. [40]
- Məktəbdən kənarda qalan hər on uşaqdan dördü heç vaxt sinif otağına daxil olmayacaq.[41]
- Qlobal səviyyədə, ibtidai təhsil yaşında olan 650 milyon uşaqdan təqribən 250 milyon nəfəri hətta təməl savadlılıq və hesab savadlılığı bacarıqlarını belə öyrənmirlər. Onların 130 milyon nəfərinin məktəbə gedən uşaqlar olması təhsilin keyfiyyətində ciddi boşluqlar olduğunu göstərir.[42]

Məlumdur ki, bu günə qədər "Hamı üçün Təhsil" uşaqların bəzi təcrid olunmuş qruplarına, xüsusilə "xüsusi təhsil ehtiyacları" olduğu hesab edilən və ya əlilliyi olan uşaqlara kifayət qədər diqqət yetirməyib.[43] Əlilliyi olan uşaqlar nisbətən diqqətdən kənarda qalıb və cari çərçivələrdə, o cümlədən hədəf və göstəricilərdə əlilliyə xüsusi diqqətin yetirilməməsi çox zaman əlilliyi olan uşaqların məktəblərdən və ümumilikdə ümumi təhsildən kənarda qoyulması ilə nəticələnib.[44] Artıq aydın olmuşdur ki, əlilliyi olan uşaqlara yönələn məqsədli tədbirlər olmasa, onlar kənarda qalmağa davam edəcəklər.

Buna görə də, UNİCEF və çoxsaylı tərəfdaşları 2015-ci ildən sonrakı dövr üçün hər bir uşağı əhatə edən, yüksək keyfiyyətli, ədalətli təhsil sistemlərinə olan ehtiyacı nəzərə alan və bütün həyat müddətini (doğuşdan yaşlılığa qədər) əhatə edən inkişaf çərçivəsini təşviq edirlər. Bu kitabçanın hazırlandığı tarixdə davam etməkdə olan danışıqları nəzərə alaraq, təklif olunan 4-cü Dayanıqlı İnkişaf Məqsədi aşağıdakı kimidir: "Hamı üçün əlçatan, bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil imkanlarını dəstəkləmək" Mətnin yenilənmiş variantları ilə tanış olmaq üçün BMT-nin saytına nəzər sala bilərsiniz: www.sustainabledevelopment.un.org.

## Əsas regional çərçivələr HÜT və inklüziv təhsili təşviq edir.

Bunların bir nümunəsi Asiya və Sakit Okean regionunda Əlilliyi olan şəxslər üçün "Hüquqları reallaşdıraq" İnçon Strategiyası və əlilliyi olan uşaqlar üçün erkən yaşda müdaxilə və təhsili genişləndirməklə bağlı 5-ci Məqsəddir.

**Hədəf 5.A**

Əlilliyi olan uşaqların doğuşdan məktəbəqədər təhsil yaşınadək erkən aşkarlanması və müdaxilə edilməsi üçün tədbirlər görmək.

**Hədəf 5.B**

Əlilliyi olan və olmayan uşaqlar arasında ibtidai və orta təhsildə qeydiyyat səviyyələri arasındakı fərqi yarıyadək azaltmaq.

### İrəliləyişi izləmək üçün göstəricilər

**Əsas göstəricilər**

1. 5.1. Erkən uşaqlıq dövründə müdaxilə tədbirindən yararlanan əlilliyi olan uşaqların sayı
2. 5.2. Əlilliyi olan uşaqların ibtidai təhsildə qeydiyyat səviyyəsi
3. 5.3. Əlilliyi olan uşaqların orta təhsildə qeydiyyat səviyyəsi

**Əlavə göstəricilər**

1. 5.4. Uşaqlarda əlilliyin erkən aşkarlanması ilə bağlı informasiya və xidmətlər, əlilliyi olan uşaqların hüquqlarının müdafiəsini təmin edən perinatal və antenatal yardım müəssisələrinin xüsusi çəkisi
2. 5.5. İşarə dilində tədris edilən kar uşaqların xüsusi çəkisi.
3. 5.6. Özlərinə uyğunlaşdırılmış şəkildə əlçatan təhsil materiallarına malik olan görmə məhdudiyyətli təhsilalanların sayı.
4. 5.7. Köməkçi cihazlar, uyğunlaşdırılmış kurrikulumlar və münasib təlim materialları ilə təmin olunmuş əqli, inkişaf əlilliklərinə malik olan, eşitmə və görmə qabiliyyətinə malik olmayan, autizm və digər əlilliklərə malik olan təhsilalanların sayı

HÜT gündəliyi 1994-cü ildə İspaniyanın Salamanka şəhərində keçirilən Xüsusi Ehtiyaclar üzrə Ümumdünya Konfransında qlobal səviyyədə təqdim edilən inklüziv təhsil gündəliyi ilə kifayət qədər uzlaşır. Salamanka Bəyannaməsi (Xüsusi Ehtiyaclar üzrə Ümumdünya Konfransının yekun sənədi) "Hamı üçün təhsil"ə olan öhdəliyin bəyan edilməsi ilə başlayır, bütün uşaqlar, gənclər və yaşlılar üçün "adi təhsil sistemi" çərçivəsində təhsilin təmin edilməsinin zəruriliyi və təxirəsalınmazlığını qəbul edir. Burada qeyd olunur ki, xüsusi təhsil ehtiyacları olan uşaqlar "adi məktəblərə getmək imkanına malik olmalıdır" və əlavə edilir ki, "inklüziv mühitə malik adi məktəblər ayrı-seçkiliyə yol verən yanaşmalarla mübarizə, əlverişli mühitə malik icmaların yaradılması, inklüziv cəmiyyətin qurulması və hamı üçün təhsilə nail olmaq üçün ən effektiv vasitədir".[45]

"Hamı üçün təhsil" hamının təhsil hüququ ilə təmin olunması məqsədini nəzərdə tutur. İnklüziv təhsil isə sadəcə seqreqasiyaya son qoymaq üçün bir vasitə kimi deyil, daha çox müxtəlifliyə hörmət edən və dəyər verən, bütün uşaqların ehtiyaclarını nəzərə alan və demokratik prinsiplərin təşviqinə yönələn məktəblərin yaradılması öhdəliyi kimi başa düşülə bilər. İnklüziv təhsil bütün uşaqların təlim və tədrisdə iştirak edə bilməsi üçün bərabərlik və sosial ədalətlə bağlı dəyər və inanclardır.[46] Bu isə UNİCEF-in bərabərlik yanaşması ilə yüksək dərəcədə uzlaşır.

Təhsil naminə Qlobal Tərəfdaşlığın üzvləri inklüziv təhsil üçün fəaliyyətə çağırır

**25-26 iyun 2014-cü il tarixlərində Brüsseldə Resursların Cəlb edilməsi üzrə İkinci Konfransda təqdim olunub**

Xüsusi Təhsil üzrə Salamanka Fəaliyyət Çərçivəsinin 20-ci ildönümündə Təhsil naminə Qlobal Tərəfdaşlığın üzvləri bütün uşaqların və gənclərin keyfiyyətli inklüziv təhsil hüququnu qorumaq öhdəliyini bir daha təsdiq etdilər. Onlar hökumətləri, donorları, beynəlxalq təşkilatları, vətəndaş cəmiyyəti təşkilatlarını, özəl sektoru, fondları, müəllim və təhsilalanları əlilliyi olan uşaqlar və gənclər üçün öhdəlikləri icra etmək üçün əlaqələndirilmiş tədbirlər görməyə çağırdılar.

https://www.globalpartnership.org/content/inclusive-quality-education-all-children-disabilities

Təhsildə iştirak məsələsi ilə bağlı UNİCEF-in istifadə etdiyi vasitələrdən biri “Məktəbdən Kənardakı Uşaqlar” Təşəbbüsüdür. Bu təşəbbüs UNİCEF-ə və tərəfdaşlara məktəbdən kənarda qalan oğlan və qızları müəyyən etmək və onların tam potensiallarına çatmasına kömək etmək üçün innovativ yanaşmalardan istifadə etmək imkanı verib. 2014-cü ildə 35-dən artıq ölkə bu təşəbbüsdə, eləcə də Şərqi Karib Dövlətlərinin sub-regional təşəbbüsündə və Mərkəzi Avropa və MDB regionunda regional təşəbbüsdə iştirak edirdi.[47] "Məktəbdən Kənardakı Uşaqlar" təşəbbüsü çərçivəsində həyata keçirilən tədqiqat və siyasət və proqram tədbirlərinin əlilliyi olan uşaqların məktəblərə cəlb olunmasını əhatə etməsini təmin etmək vacibdir.



## Əlilliyi olan uşaqların təhsilinə yanaşmalar

İndiyə qədər əlilliyi olan uşaqların təhsilinə üç geniş yanaşma tətbiq olunub: **seqreqasiya** - bu yanaşmaya əsasən uşaqlar malik olduqları sağlamlıq məhdudiyyətinə uyğun təsnifləndirilir və məhz həmin məhdudiyyətə uyğun yaradılmış məktəbə təyin olunur; **inteqrasiya** - bu zaman əlilliyi olan uşaqlar adekvat adaptasiya və ya dəstək olmadan (yaxud yetərli səviyyədə olmadan) ümumi təhsil sistemində çox zaman xüsusi siniflərdə, yaxud ümumi siniflərdə yerləşdirilir; **inklüziv qoşulma** - bu zaman ayrı-ayrı şagirdlərin fərqli ehtiyaclarını nəzərə almaq üçün məktəbdə mədəniyyətin, siyasətlərin və təcrübələrin dəyişdirilməsi zərurəti və bu imkana mane olan əngəllərin aradan qaldırılması öhdəliyi qəbul edilir.[48] Bu yanaşmalar növbəti diaqram və bölmələrdə daha ətraflı izah olunur.







**Şəkil:** Xüsusi, inteqrativ və inklüziv təhsil arasındakı fərqlərin izahı.[49]

> "İnteqrasiya dairəvi dəliyə yerləşməyən kvadrat fiqur kimi göründüyü halda, inklüziv qoşulma müxtəlif formalı və ölçülü, hər biri vəhdətlə qarşılıqlı əlaqəli olan çoxsaylı fiqurlara malik olan və girişində "İçəri gəl. Biz burada fərqliliyi təqdir edirik. Özün kimi ol və uyğunlaşmağa çalışma" yazılan bir çevrədir[50]

## Xüsusi təhsil

*Əlilliyin tibbi modelinə* uyğun olaraq, bu günə qədərki yanaşma daha çox xüsusi/seqreqasiyalı məktəblər vasitəsilə fərdi məhdudiyyətləri və əlillik qruplarını nəzərə almaq (məs. korlar üçün məktəb, karlar üçün məktəb və s.) və ya əlilliyi olan uşaqları ümumi siniflərə, yaxud ümumi məktəblər daxilində ayrıca bölmələrə yerləşdirmək idi. Bu, əvvəlki səhifədəki diaqramın birinci hissəsində təsvir olunur.

Xüsusi məktəblər və ya ayrıca siniflərin olması digər təhsil formalarına və ya təhsilin olmamasına yaxşı alternativ hesab edilirdi, çünki siniflər daha kiçik olur, binalar daha çox şagirdlərin ehtiyaclarına uyğunlaşdırılır, onların bir-birinə qarşı ayrı-seçkilik potensialı daha aşağıdır və müəllimlər spesifik məhdudiyyətləri olan uşaqlarla məşğul olmaq üçün hazırlandığından, şagirdlərə fərdi şəkildə kömək edə biləcəkləri hesab edilir. Lakin xüsusi məktəblər baha başa gəlir və əsasən şəhərlərdə yerləşdiyindən, kənd və şəhərətrafı ərazilərdə yaşayan əlilliyi olan uşaqların əksəriyyətini təhsil imkanlarından məhrum edir. Bolqarıstan kimi bəzi ölkələrdə xüsusi məktəbdə təhsil alan hər uşağa ayrılan büdcə ümumtəhsil məktəbində təhsil alan uşaqla müqayisədə üç dəfəyədək yüksək ola bilər.[51]

Xüsusi məktəblərdəki təhsilalanların istifadə etdiyi kurrikulum çox zaman inklüziv ümumi məktəblərdə tətbiq edilən kurrikulumla eyni əhatəliliyə malik olmur. Tədqiqatlar həmçinin göstərir ki, xüsusi məktəblərdə təhsil məşğələlərinə daha az vaxt ayrılır.[52] Təhsil sisteminin və cəmiyyətin uzunmüddətli təsirləri səbəbindən əlilliyi olan uşaqlardan təhsil müvəffəqiyyəti ilə bağlı gözləntilər daha aşağı olur ki, bu da əlilliyi olan uşaqların daha yaxşı nəticələr əldə etməsinə yetərli dəyər verilməməsinə səbəb olur.[53] Tədqiqatlar bir qayda olaraq müəyyən etmişdir ki, xüsusi məktəblərin effektivliyi düzgün planlaşdırılmış inklüziv təhsillə müqayisədə daha aşağıdır.[54] Növbəti bölmədə inklüziv təhsillə bağlı daha ətraflı məlumat təqdim olunur.

Bundan əlavə, mövcud tendensiyalara əsasən, hər bir ölkədə yalnız bir neçə xüsusi məktəb olur. Bu isə, həmin məktəblərə gedən uşaq və gənclərin öz ailələrindən uzun müddət uzaq qalmaları deməkdir. Məsələn, "İnclusion İnterAmericana" təşkilatının məlumatına görə, 2000-ci ilin sentyabr ayında Salvadorda əlilliyi olan məktəb yaşlı gənclərin sayı 222 000 nəfər olub. Onlardan iki mini ölkədə ümumi sayı 30 olan xüsusi məktəblərə gedib. Bu o deməkdir ki, xüsusi məktəbə və ya ümumiyyətlə hər hansı məktəbə gedənlərin xüsusi çəkisi 1 faizdən aşağıdır."[55]

## İnklüziv təhsil

UNİCEF inklüziv təhsili UNESCO tərəfindən təklif olunan və geniş ictimaiyyət tərəfindən qəbul edilən tərifə uyğun olaraq izah edir: "təlim, mədəniyyət və icmalarda iştirakın artırılması və təhsil sistemi daxilində və ondan qaynaqlanan təcridolunmanın azaldılması yolu ilə bütün təhsilalanların ehtiyaclarının müxtəlifliyinin nəzərə alınması və cavab tədbirlərinin görülməsi prosesi". İnklüziv təhsil müvafiq yaş aralığına daxil olan bütün uşaqları əhatə edən gələcəyə ümumi baxış və dövlətin bütün uşaqlara təhsil vermək öhdəliyi əsasında məzmuna, yanaşmalara, struktur və strategiyalara dəyişiklik və modifikasiyaların edilməsini ehtiva edir."[56]

Praktikada inklüziv təhsil hamının keyfiyyətli, münasib və adekvat təhsil hüququnun reallaşdırılmasına yönələn geniş spektrli strategiyalar, fəaliyyətlər və prosesləri nəzərdə tutur.[57]

İnklüziv təhsili daha aydın izah etmək üçün, onun əsas əlamət və prinsiplərinin siyahısı aşağıda təqdim olunur:

- Hüquqlara əsaslanır və əlilliyin sosial modelini rəhbər tutur.
- Şagirdin təhsil sisteminə uyğunlaşması üçün dəyişdirilməsini deyil, sistemin şagirdə uyğunlaşması üçün dəyişdirilməsini nəzərdə tutur, çünki təcridetmə "problemi" şəxs və ya onun əlamətlərində deyil, sistemin daxilindədir.

- Öyrənmənin doğuşdan başladığını və bütün həyat boyu davam etdiyini təsdiq edir və evdə və icmada, formal, qeyri-formal və informal şəraitdə öyrənməni də əhatə edir. Geniş spektrli icma təşəbbüslərini, o cümlədən **icma əsaslı reabilitasiya proqramlarını** əhatə edir.
- Yerli mədəniyyətə və kontekstə uyğun olaraq daima təkamül edən dinamik prosesdir.
- İcmalara, sistemlərə və strukturlara ayrı-seçkiliklə mübarizə aparmaq, müxtəlifliyi təqdir etmək, iştirakı təşviq etmək və hər kəsin öyrənməsi və iştirakına olan əngəlləri aradan qaldırmaq imkanı verir.
- Yaş, gender, etnik mənsubiyyət, dil, sağlamlıq vəziyyəti, iqtisadi vəziyyəti, din, əlillik, həyat tərzinə görə fərqlər və digər fərqlilik formaları qəbul edilir və hörmət edilir.
- İnklüziv inkişafı təşviq edən daha geniş miqyaslı strategiyanın bir hissəsi olmaqla, sülh, tolerantlıq, resurslardan dayanıqlı istifadə və sosial ədalətin mövcud olduğu, hər kəsin təməl ehtiyac və hüquqlarının təmin edildiyi bir dünya yaratmaq məqsədini güdür.

O, şagirdin sistemə uyğunlaşmaq üçün dəyişdirilməsini deyil, sistemin şagirdə uyğunlaşmaq üçün dəyişdirilməsini nəzərdə tutur

ƏŞHK-nın 24-cü maddəsində qeyd olunduğu kimi, inklüziv təhsil həm iştiraka mane olan əngəllərin fəal şəkildə aradan qaldırılmasını (məsələn, məktəb binasına girməyə mane olan fiziki əngəllər), həm də, ümumi məktəblərdə uşaqları diqqət mərkəzində saxlayan və yalnız əlilliyi olan şəxsləri deyil, cəmiyyətdəki insanların bütün spektrini əks etdirən mühitlərin yaradılmasını tələb edir. [58] İnklüziv təhsil bütün uşaqların geniş spektrli məktəblərdə və əlavə təhsil mühitlərində (yəni, icma əsaslı, məsələn, icma əsaslı reabilitasiya mərkəzləri) bərabər və sistemli təhsil imkanlarına malik olmasını və onların inklüziv şəkildə cəlb olunmasına kömək üçün tələb olunan fərdi şəkildə uyğunlaşdırılmış dəstəklə təmin olunmasını nəzərdə tutur.

Vurğulamaq lazımdır ki, inklüziv təhsil təhsilalanlara onların ehtiyaclarına cavab verməyən təhsil sistemi ilə ayaqlaşmağı öyrətmir. O, bir vasitədir və onun vasitəsilə tədris metodları, kurrikulum, heyət və pedaqoji yardım BÜTÜN təhsilalanların, o cümlədən indiyədək ənənəvi sistemlərin əhatə edə bilmədiyi təhsilalanların öyrənməsi üçün uyğunlaşdırılır. İnklüziv təhsilin effektiv olması üçün o, çoxsahəli olmalı və sadəcə təhsil sektorunu deyil, çoxsaylı müxtəlif dövlət qurumlarını və maraqlı tərəfləri cəlb etməlidir. Bu, həmçinin, bütün fənn sahələrinə şamil olunur, məsələn, fiziki tərbiyə və istirahətin təşkili.[59]

Ümumilikdə, inklüziv təhsil fərqliliyi əsas götürən yanaşmadan tamamilə fərqli pedaqoji yanaşma təmin edir. O, aşağıdakıları ön plana çəkir[60]:

- Koqnitiv bacarıqların iyerarxiyası deyil, hər bir şagirdin açıq öyrənmə potensialı.
- Şagirdin çatışmazlıqlarına köklənmək əvəzinə, kurrikulumun yenidən qurulması və hər bir uşağın potensialını qəbul edən çoxsahəli pedaqogika.
- Müəllimlərin tələb olunan bacarıqlarında ixtisaslaşmış sahə biliklərinin ön plana çəkilməsi əvəzinə, təlim prosesində şagirdlərin fəal iştirakı.
- Müvəffəqiyyət göstəriciləri aşağı olanlar üçün alternativ kurrikulumun hazırlanması əvəzinə, differensial və/yaxud fərdə uyğunlaşdırılan tədrisə əsaslanan vahid kurrikulum.
- Müəllimlər hər bir uşağın fərqli ehtiyaclarını qəbul edən uşaq yönümlü və inklüziv metodologiya tətbiq etməyə hazırdır və qadirdir.

İnklüziv təhsil üçün zəruri olan əksər resurslar artıq icmada mövcuddur: "Müəllimlərin bildikləri istifadə etdiklərindən çoxdur",[61] ailə və icmaların da üzə çıxarılmalı və istifadə edilməli nəhəng resursları mövcuddur.[62]

İnklüziv məktəblərin xüsusi məktəblərlə müqayisədə xərc baxımından daha səmərəli, akademik və sosial baxımdan daha effektiv olduğunu göstərən dəlillər artmaqdadır. ABŞ-da aparılan tədqiqatlardan birində müəyyən edilib ki, "xüsusi proqramlar ümumi təhsillə müqayisədə 130 faiz daha baha başa gəlir. Məktəbin yerləşdiyi rayon hər şagirdə 5000 ABŞ dolları xərcləyirsə, o zaman xüsusi proqramlara təyin olunan hər bir şagirdə həmin rayon 11500 ABŞ dolları xərcləyir"[63]. Başqa bir tədqiqat göstərdi ki, nə qədər çox tələbəyə daha məhdudlaşdırıcı, seqreqasiyalı mühitlərdə xidmət göstərilərsə, onların təhsil xərcləri də o qədər yüksək olur.[64]

"İnklüziv təhsil əlilliyi olan uşaqlara öz ailələri ilə qalmaq və yaşadıqları ərazidə yaşıdları ilə birgə ən yaxın məktəbə getmək imkanı verir. Bu, onların şəxsi inkişafı üçün çox vacibdir, çünki uşağın normal inkişafının pozulması əlilliyin özündən də ağır fəsadlara gətirib çıxara bilər."[65] Xüsusi məktəblər arasında da təhsilin keyfiyyəti xeyli fərqli ola bilər.[66] [67] [68] [69] Bu da öz növbəsində o deməkdir ki, bəzi şagirdlər əmək bazarına kifayət qədər hazır olmaya bilər və əlilliyi olan və olmayan yaşıdları arasında olmaq imkanını itirəcəkdir. Xüsusi məktəblərin icmada və ümumi məktəblərdə inklüziv təhsil üçün resurs mənbəyi kimi rolunun gücləndirilməsi tendensiyası getdikcə artmaqdadır.

İnklüziv təhsilin çoxsahəli xarakteri 3-cü nəşrdə müzakirə ediləcək.

### **Ölkədən nümunə:** Monqolustanda inklüziv təhsilin inkişaf etdirilməsi[70]

Monqolustanda hökumət, beynəlxalq QHT-lər, valideyn qrupları və donorlar, o cümlədən Avropa İttifaqı arasında əməkdaşlıq vasitəsilə milli inklüziv təhsil proqramı formalaşmaqdadır. 1989-cu ilə qədər, ölkə əlilliyi olan uşaqlar və böyüklər üçün xüsusi məktəblər və stasionar qayğı təmin edirdi. Lakin bu müəssisələr onların əsas ehtiyaclarını qarşılasa da, cəmiyyətə qoşulmaq kimi digər hüquqlarının reallaşmasına imkan vermirdi. Bəzi siyasi-iqtisadi dəyişikliklər nəticəsində, xüsusi məktəblər və müəssisələr bağlanmağa məcbur oldu və bu, yeni yanaşmaya yol açdı.
1998-ci ildə əlilliyi olan uşaqların hüquqlarını təşviq etmək və qorumaq üçün Əlil Uşaqların Valideynləri Assosiasiyası (APDC) yaradıldı. APDC bir çox fəaliyyətlər, o cümlədən digər ölkələrin təcrübəsindən öyrənmək üçün inklüziv təhsillə bağlı siyasətlərin təhlilləri, təlim seminarları həyata keçirdi, siyasətlərin yenilənməsi və təcrübələrin dəyişdirilməsi ilə bağlı Təhsil Nazirliyi ilə əməkdaşlıq etdi və əlilliyi olan uşaqların təhsilə cəlb olunmasına imkan yaratmaq üçün tələb olunan müxtəlif dəstək xidmətlərini müəyyən etdi. İcma əsaslı reabilitasiya icma əsaslı mərkəzlərdə təqdim olunan erkən aşkarlama, tibbi müalicə və reabilitasiya kimi xidmətlərlə birlikdə ümumi strategiyanın tərkib hissəsi idi. 2003-cü ildə Təhsil Nazirliyi tərəfindən İnklüziv Təhsil Bölməsi və Səhiyyə və Sosial Rifah və Əmək Nazirlikləri ilə birgə proqram icra komitəsi yaradıldı. İlkin olaraq inklüziv təhsilin təşviqinə əsas diqqət məktəbəqədər səviyyəyə yönəlirdi, lakin daha sonra genişləndirilərək ibtidai təhsil səviyyəsini əhatə etdi. Bütün bu səylərin nəticəsində əlilliyi olan minlərlə uşaq bağçalara qəbul edildi və müəllimlərlə inklüziv yanaşmalar üzrə təlimlər keçirildi.

İnklüziv təhsil kiçik məsələ deyil, əksinə bütün təhsilalanlar üçün yüksək keyfiyyətli təhsilə nail olmaq və daha inklüziv cəmiyyətlərin inkişafı üçün həlledici rol oynayır.

İnteqrasiyanın da daxil olduğu ənənəvi yanaşma ilə inklüziv yanaşma arasındakı fərqləri daha yaxşı başa düşmək üçün aşağıdakı diaqramda hər ikisinin əsas əlamətləri müqayisə edilir.

| Ənənəvi yanaşma (inteqrasiya da daxil ola bilər) | İnklüziv yanaşma |
|---|---|
| • Şagird diqqət mərkəzində<br>• Şagirdin mütəxəssis tərəfindən qiymətləndirilməsi<br>• Diaqnostik/təyinedici proqram<br>• Münasib proqramda yerləşdirilmə<br>• "Xüsusi" şagirdlərin ehtiyacları<br>• Fənnin dəyişdirilməsi/təkrarlanması<br>• İnteqrə edilməyin xüsusi ehtiyacları olan şagirdə faydaları<br>• Peşəkar mütəxəssis təcrübəsi və rəsmi dəstək<br>• Texniki müdaxilə tədbirləri (xüsusi tədris, terapiya) | • Sinif otağı diqqət mərkəzində<br>• Təlim-tədris faktorlarının təhlili<br>• Birgə problem həlli<br>• Müəllimlər üçün strategiyalar<br>• Uyğunlaşdırıla bilən və dəstəkləyici adi sinif mühitləri<br>• Bütün şagirdlərin hüququ<br>• Məktəbin dəyişməsi<br>• Hər kəsin inklüziv şəkildə cəlb olunmasının bütün şagirdlərə faydaları<br>• Ümumi təhsil müəllimlərindən qeyri-rəsmi dəstək və təcrübə<br>• Hamı üçün yaxşı tədris |

**Porter (1995):** Ənənəvi və inklüziv yanaşmanın müqayisəsi[71] əlilliyin sosial və tibbi modelləri əsasında təhsil ehtiyacları və müvafiq cavab tədbirlərinin başa düşülməsindəki fərqləri göstərir.

Aşağıdakı bölmələr inklüziv təhsilin niyə vacib olduğunu, inklüziv təhsilin əsas qərarverici şəxslər qarşısında necə əsaslandırıla biləcəyini və inklüziv təhsilə nail olmağın yolları barədə ümumi məlumatı əks etdirir.

**Daha ətraflı məlumat üçün bax:**

- *UNİCEF-in İnklüziv Təhsil üzrə Onlayn Məlumatlar Bazası* (www.inclusive-education.org) *çox geniş resurslar toplusundan ibarətdir.*
- *"Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma". UNICEF, 2012.* http://www.unicef.org/ceecis/IEPositionPaper_ENGLISH.pdf
- *"Enabling Education" Şəbəkəsi:* http://www.eenet.org.uk
- *UNESCO-nun İnklüziv təhsil veb saytı:* http://www.unesco.org/new/en/education/themes/strengthening-education-systems/inclusive-education/
- *UNİCEF, "Müxtəlifliyi qəbul etmək: İnklüziv öyrənmə yönümlü mühitlər yaratmaq üçün alətlər dəsti":* http://www.unescobkk.org/education/inclusive-education/resources/ilfe-toolkit/
- *Beynəlxalq Əlillik İttifaqı, "İnklüziv Təhsil üzrə Mövqe Sənədi":* http://www.internationaldisabilityalliance.org/en/ida-position-papers-and-statements
- *Handicap International, "İnklüziv Təhsil üzrə Siyasət Sənədi":* http://www.hiproweb.org/uploads/tx_hidrtdocs/PP08IE.pdf
- *"İnklüziv təhsil: resurslar məhdud olduqda", S. Stubbs, Oslo, Norveç, 2008:* http://www.eenet.org.uk/resources/docs/IE%20few%20resources%202008.pdf

## Qeydlər

# IV.İnklüziv təhsil niyə vacibdir: İnklüziv təhsilin əsaslandırması

**Əsas məqamlar**

- *İnklüziv təhsil hamı üçün təlim nəticələrinin yüksəlməsinə gətirib çıxarır.*
- *İnklüziv təhsil mühitində bütün uşaqlar sosial baxımdan faydalana bilər.*
- *İnklüziv təhsil xərc baxımından səmərəli ola bilər.*

## Hamı üçün təlim nəticələrinin yüksəldilməsi - TƏHSİL baxımından əsaslandırma

İnklüziv təhsil həyata keçirildikdə, tədrisin planlaşdırılması, icrası və qiymətləndirilməsinə edilən önəmli dəyişikliklərdən bütün uşaqlar təhsil baxımından faydalanır. Əlilliyi olan uşaqlar və digər əlverişsiz mövqedə olan qrupların məktəblərə inklüziv şəkildə cəlb olunduğu yerlərdə təhsilin keyfiyyətində yaxşılaşma olmuşdur, çünki bu zaman təhsil uşaqları daha çox diqqət mərkəzinə gətirir və bütün uşaqlar üçün, o cümlədən fərqli qabiliyyətlərə malik uşaqlar üçün yaxşı təlim nəticələrinin əldə olunmasına yönəlir.[72]

Tədqiqatlar göstərir ki, əlilliyi olan uşaqlar, o cümlədən öyrənmə məhdudiyyətləri olan uşaqların ümumi təhsil məktəblərində akademik nəticələr və davranış baxımından əldə etdikləri irəliləyiş seqreqasiyalı siniflərdə[73] təhsil alan yaşıdları ilə müqayisədə daha böyükdür.[74] Bundan əlavə, müəllimlər əlilliyi olan uşaqları cəlb etməklə bağlı hazırlıqlı olduqda, əlilliyi olan uşaqlar üçün təlim səviyyəsi və standartı yüksəlir və həmçinin əlilliyi olmayan uşaqlar üçün də təlim səviyyəsi yüksəlir.[75]

Bütün uşaqlar, lakin ən əlalxüsus fərqli öyrənmə vərdişlərinə malik uşaqlar faydalanır, çünki hər bir uşaq öz yaşıdları arasında olarkən fərdi məqsədləri üzərində işləyir. Ümumilikdə, inklüziv təhsil xüsusi məktəblərdəki səciyyəvi kurrikulumla müqayisədə əlilliyi olan uşaqlara daha geniş kurrikuluma çıxış imkanı verir. Belə ki, xüsusi məktəblərdə "xüsusi pedaqoji yanaşmaların mövcudluğu çətinlikləri olan uşaqların daha da təcrid olunmasına və kənarda qoyulmasına səbəb olur". İnklüziv siniflər həm də seqreqasiyalı mühitlərlə müqayisədə tədris fəaliyyətinə daha çox diqqət yetirir.

Məktəb populyasiyasının spektrini genişləndirməklə, müəllimlər, idarəçilər və bütün məktəb heyəti inklüziv təhsildən faydalanır. Bütün şagirdləri inklüziv şəkildə cəlb edən məktəb böyüklərin bir-birindən və öz şagirdlərindən öyrəndiyi daha inklüziv bir mühit formalaşdırır. Bütün uşaqların potensialları barədə daha məlumatlı olduqda, məktəb heyətinin təlim-tədris fəaliyyətini daha yüksək gözləntilər üzərində qurması və bununla da təbii uğur sikli yaratması ehtimalı daha yüksəkdir.

## Bütün uşaqlar faydalanır - SOSİAL əsaslandırma

İnklüziv təhsil bütün uşaqların birlikdə yaşamasını, öyrənməsini və oynamasını təmin edir. O, bütün uşaqlara bir-birinin bacarıqları, istedadı, şəxsiyyəti və ehtiyaclarını tanımaq və qəbul etmək imkanı verir. O, həmçinin onlara sosial bacarıqlarını və bir-biri ilə və ətrafdakı insanlarla qarşılıqlı əlaqədə olmaq qabiliyyətlərinə olan inanclarını gücləndirməyə kömək edən faydalı münasibətlər və dostluqlar qurmaqda kömək edir.[79] Onlar bütün uşaqların onların icmasının bir hissəsi olduğunu öyrənir və

birlikdə mənsubiyyət hissini gücləndirirlər.

Bütün uşaqlar birlikdə öyrəndikdə, məktəblərdə və ətraf icmalarda münasibətlərdə baş verən müsbət dəyişikliklər əlilliyi olan uşaqların stiqmaya daha az məruz qalmasına və cəmiyyətə daha çox qoşulmasına gətirib çıxarır. Tədqiqatlardan birində müəyyən edilmişdir ki, inklüziv mühitlərdə orta-ağır dərəcəli əlillikləri olan şagirdlər seqreqasiyalı siniflərdəki yaşıdları ilə müqayisədə müstəqillik və sosial bacarıqlar üzrə qiymətləndirmələrdə oxşar və hətta daha yüksək nəticələr göstərib.[81]

Aydındır ki, bütün uşaqlar tolerantlığı, fərqliliyi qəbul etməyi və müxtəlifliyə[82] hörmət etməyi öyrənir, habelə əlillik təcrübəsi barədə biliklərə yiyələnirlər. Bundan əlavə, öz yaşıdları ilə birlikdə təhsil alan əlilliyi olan uşaqların öz cəmiyyətlərinin məhsuldar üzvlərinə çevrilmək şansı daha yüksək olur.[83]

## Xərc baxımından səmərəlidir - İQTİSADİ əsaslandırma

İnklüziv təhsilin xüsusilə yoxsulluğun azaldılması və təhsil xərclərinin azaldılması baxımından güclü iqtisadi əsasları mövcuddur.

**Yoxsulluğun azaldılması:** Adekvat təhsilin olmaması əlilliyi olan və olmayan bütün uşaqların yoxsulluq və təcridolunmaya məruz qalmasına gətirib çıxaran əsas risk faktorudur. Lakin təhsilsizliklə əlaqəli yoxsulluq riski əlilliyi olmayan uşaqlarla müqayisədə əlilliyi olan uşaqlar üçün daha yüksək ola bilər. Təhsildən kənarda qalan əlilliyi olan uşaqların uzun müddət və ömür boyu yoxsul olmaq riski faktiki olaraq qaçılmazdır. Onların cəmiyyətin və ailələrinin üzərində iqtisadi yükə çevrilmələri də demək olar ki, qaçılmazdır. Dünya Bankının məlumatına əsasən, "əlillik uzunmüddətli yoxsulluqla assosiasiya olunur, çünki əlilliyi olan uşaqların daha yüksək gəlir əldə etməyə imkan verəcək insan kapitalı əldə etmək ehtimalı daha aşağıdır". Məlum olduğu kimi, iqtisadiyyatda əlilliyi olan şəxslərin iştirak etməməsindən qaynaqlanan ÜDM itkisi mövcuddur. Qlobal məhsul buraxılışı və gəlirlərdə əlillikdən qaynaqlanan azalmaların miqyası barədə təsəvvür qazanmaq üçün, tədqiqatçılardan biri Kanadada əlillik nəticəsində itirilmiş ÜDM üzrə tədqiqatın nəticələrini ekstrapolyasiya etməklə, əlillikdən qaynaqlanan ÜDM itkisini təqribi hesablayıb. Əlillikdən qaynaqlanan qlobal ÜDM itkisi təqribən illik 1.71-2.23 trilyon ABŞ dolları aralığında olub ki, bu da qlobal ÜDM-in 5.35-6.97 faizinə bərabərdir.[85] Bütün uşaqların, o cümlədən əlilliyi olan uşaqların cəmiyyətə yük deyil, töhfə verən üzvlər olduğunu qəbul etmək vacibdir. Keyfiyyətli inklüziv təhsilin təmin edilməsi uzunmüddətli perspektivdə dövlətdən asılılığı azalda və onların iqtisadi potensialını yaxşılaşdıra bilər.

### Ölkədən nümunə: Banqladeş

Tədqiqatlardan birində müəyyən edilmişdir ki, həm əlilliyi olan şəxslərin, həm də onlara qulluq edən şəxslərin təhsilsizlik və işsizlik səbəbindən itirdiyi gəlir baxımından əlilliyin vurduğu təqribi zərər illik 1.2 milyard ABŞ dolları, yaxud ÜDM-in 1.7 faizi həcmində olub.

**Təhsil xərci:** UNESCO-nun məlumatına görə, "bütün şagirdlərinə effektiv təhsil təqdim edən inklüziv məktəblər hamı üçün təhsilin təmin edilməsi üçün xərc baxımından daha səmərəli vasitədir. İƏİT-in 1999-cu il tarixli bir hesabatında təqdim olunan təqribi hesablamaya əsasən, seqreqasiyalı mühitdə yerləşdirmənin orta xərcləri əlilliyi olan uşaqların ümumtəhsil siniflərində yerləşdirilməsi ilə müqayisədə 7-9 dəfə daha yüksəkdir. İƏİT-in daha yeni tədqiqatlarından birində müəyyən edilmişdir ki, xüsusi təhsildə adambaşına düşən xərclər ümumi təhsillə müqayisədə 2.5 dəfə yüksək olub. Bu, əsasən əmək haqlarının hesabına baş verir, çünki müəllim-şagird nisbəti

daha çox əlilliyi olan uşaqların xeyrinədir. İnklüziv məktəblərdə isə bu fərq iki dəfəyə düşüb.[89] Bununla belə, ölkələr arasında bu göstərici əsaslı dərəcədə dəyişir. Bu tədqiqat göstərir ki, bütün şagirdlərin birlikdə təhsili üçün məktəblərin yaradılması və saxlanması müxtəlif uşaq qrupları üçün ixtisaslaşmış müxtəlif məktəb növlərindən ibarət mürəkkəb sistemin qurulmasından daha aşağı xərclə başa gələ bilər.

**Daha ətraflı məlumat üçün bax:**

- Birlikdə daha yaxşı öyrənirik: İnklüziv məktəblərdən bütün uşaqlar faydalanır.
- Hər bir uşaq savadlı icmanı gücləndirir

## Qeydlər



# V. İnklüziv təhsilə necə nail ola bilərik?

Bu bölmədə hamı üçün inklüziv təhsilə doğru irəliləməyin yolları və bu buraxılışın qalan kitabçalarında əhatə olunacaq məsələlər, o cümlədən inklüziv təhsilin gücləndirilməsinin müxtəlif aspektləri və sistem yanaşmaları barədə ilkin məlumat təmin edilir.

Təcrübədə inklüziv təhsil ümumi təhsil sistemi daxilində bütün şagirdlər üçün faydalı təlim imkanlarının təmin edilməsini ehtiva edir. İdeal vəziyyətdə, o, əlilliyi olan və olmayan uşaqların yerli məktəbdə eyni ümumi siniflərdə zərurət olduqda əlavə, fərdə uyğunlaşdırılmış dəstək fonunda iştirak etməsinə imkan verir. O, fiziki uyğunlaşdırmalar (məs. pilləkən əvəzinə rampalar, əlil arabalarının keçə bildiyi qapı keçidləri və s.), habelə cəmiyyətdəki bütün insanların bütün spektrini (təkcə əlilliyi olan şəxsləri deyil) əhatə edən uşaqyönümlü kurrikulum tələb edir.[90]

Bütün uşaqları inklüziv təhsil mühitinə cəlb etmək üçün uşaq deyil, sistem dəyişməlidir. Aşağıdakı diaqramda məktəbin hamı üçün yaxşılaşdırılması üçün dəyişdirilməli olan sahələr əks olunur:



## İnklüziv təhsil hüququnun təşviqi üçün konseptual çərçivə

Təhsilə insan hüquqları əsasında yanaşma sadəcə ənənəvi iş yanaşması ilə kifayətlənmir və inklüziv təhsilin tətbiqi üçün üçölçülü yanaşmanın qəbulu tələb olunur. Bunun üçün inklüzivlik bütün uşaqların təhsilinə yönələn və aşağıdakıları əhatə edən yanaşma kimi başa düşülməlidir:

- Təhsilə çıxış hüququnu təşviq edən təhsil siyasətləri və strategiyaları
- Keyfiyyətli təhsil almaq hüququ
- Təlim mühiti daxilində hüquqlara hörmət

Vurğulanmış üç təməl prinsipə uyğun olaraq, inklüziv yanaşma çərçivəsində “Hamı üçün Təhsil” məqsədlərinə nail olmaq və əlilliyi olan uşaqların öz hüquqlarından istifadə edə bilməsini təmin etmək üçün aydın konseptual çərçivənin hazırlanmasına ümumi hökumət öhdəlikləri tətbiq oluna bilər.

Bundan əlavə, bu yanaşma əlilliyi olan uşaqların hüquqlarını təmin etmək üçün zəruri mühiti yaratmaq üçün hökumətdə geniş strateji öhdəliyin götürülməsi ilə müşayiət olunmalıdır.




Keyfiyyətli inklüziv təhsil hüququnun həyata keçirilməsinə yönələn strategiyalara dair bəzi nümunələr aşağıda təqdim olunur:

- Keyfiyyətli inklüziv təhsil hüququnu ön plana çəkən **əlverişli qanunvericilik bazasının yaradılması**. Buraya "Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanın və "Uşaq hüquqları haqqında” Konvensiyanın ratifikasiyası və icrası, milli qanunların, xüsusən təhsil qanunlarının bu konvensiyalarla uzlaşmasını təmin etmək daxildir.

  Nümunə: Makedoniyada UNİCEF 2013-cü ildə Hökumətə yeni "Uşaqların erkən yaş dövründə inkişafı haqqında" qanunun və 27 yeni köməkçi qanunun hazırlanması və təsdiqində dəstək göstərmişdir. Bu

qanunlar bütün uşaqlar, o cümlədən əlilliyi olan uşaqlar üçün keyfiyyətli, erkən təhsil imkanlarına çıxış üçün hüquqi və siyasi baza təmin edir.

Nümunə: Vyetnamda UNİCEF Hökumətə əlilliyi olan uşaqların hüquqlarını təşviq etmək üçün normativ-hüquqi çərçivələrin gücləndirilməsində dəstək göstərib. UNİCEF "Əlilliyi olan şəxslər haqqında" Dövlət Qanununun hazırlanmasına dəstək göstərib. Qanun 2011-ci ildən qüvvəyə minib. UNİCEF-in dəstəyilə, əlilliyi olan uşaqların təhsili ilə əlaqəli iki hökumət sirkulyar sənədi dərc olunub. Onlara əsasən, 1-ci sinfə qəbul yaşı artırılıb və əlilliyi olan uşaqlar üçün inklüziv təhsilin inkişafını dəstəkləyən mərkəzlər üçün qaydalar nəzərdə tutulub. Hökumət həmçinin məktəblərə əlilliyi olan uşaqların inklüziv təhsilinə dəstək göstərmək üçün maliyyə vəsaiti almaq imkanı verən sirkulyar sənədi dərc edib. UNİCEF hazırda əlilliyi olan uşaqlarla işləyən müəllimlər üçün siyasətlərə dair qurumlararası daha bir sirkulyar sənədinin hazırlanmasına dəstək göstərir.

- Əlilliyi olan uşaqları əhatə edən və təhsil sistemində inklüzivliyi təşviq edən **təhsil sektoru üzrə plan və siyasətlərin hazırlanması**. Təhsil sektoru üzrə inklüziv planların tətbiqi üçün potensial, resurslar və liderliyin təmin edilməsi. Kurrikulum, təlim materialları, təlim prosesləri və təlim qiymətləndirmələrinin əlilliyi olan uşaqlar üçün də əlçatan olmasının təmin edilməsi.

Nümunə: Tanzaniyada Təhsil Sektoru üzrə İnkişaf Planı (2008-2017) "təhsilalanlar arasında özünəinam hissinin və irq, gender, coğrafi yerləşmə və əlilliyindən asılı olmayaraq hər kəsə hörmətin gücləndirilməsinə" investisiya etmək niyyətini aydın şəkildə bəyan edir. Keyfiyyətli ibtidai təhsilə çıxış imkanının yaxşılaşdırılması istiqamətində, prioritet tədbirlərdən biri "həm şəhər, həm kənd yerlərində məktəbdən kənarda qalan uşaqlara, həssas qruplardan (əlilliyi olan şəxslər, kimsəsiz uşaqlar, İİV/QİÇS-lə yaşayan böyüklər, gənc analar, savadsız şəxslər və s.) olan gənclərə və böyüklərə, kişi və qadınlara biliklərin və peşə bacarıqlarının aşılanmasını gücləndirmək"dir. İlkin təhsil pilləsində məqsəd məktəbəqədər təhsil müəllimlərini uşaqyönümlü pedaqogikaya, o cümlədən qızlar və əlilliyi olan uşaqlar üçün məqsədəuyğun praktiki təcrübələri qəbul etməyə yönləndirməkdir. Burada həmçinin bəyan edilir ki, "mümkün olduğu hallarda xüsusi təhsil ehtiyacları olan bütün uşaqlar "normal" məktəblərdə "normal" siniflərdə təhsil almalıdır: bu inklüziv yanaşma müəllimlərin adekvat şəkildə hazırlıq keçməsini, məktəb binalarının əlillər üçün əlverişli olmasını və zərurət olduqda icma arasında maarifləndirməni şərtləndirir.

- **Əlillik və təhsillə bağlı məlumatların yaxşılaşdırılması** və fəaliyyət üçün hesabatlılığın formalaşdırılması. Əlillik və məhdudiyyətin növü üzrə dezaqreqasiya olunmuş, etibarlı və obyektiv məlumatları toplamaq, eləcə də təhsil planlaşdırmasında istifadə üçün məktəb sisteminin əlçatanlığı və inklüzivliyi barədə məlumatları təqdim etmək üçün Təhsil İdarəçiliyi üzrə Məlumat Sistemlərinin (TİMS) gücləndirilməsi.

Nümunə: UNİCEF-in Baş Qərargahı əlilliyin daxil olduğu TİMS sistemi üzrə bələdçi hazırlamışdır. Bu sistem əlilliyi olan uşaqlar və təlim mühitinin əlçatanlığı barədə məlumatları daha yaxşı toplamaq və təqdim etmək üçün TİMS-in gücləndirilməsi məqsədilə 2014-2015-ci illərdə UNİCEF-in üç proqram ölkəsində sınaqdan keçiriləcək.

Nümunə: Qanada UNİCEF-in dəstəyilə, Xüsusi Təhsil Bölməsi məktəblərin inklüziv təhsili qiymətləndirməsi və bu barədə anlayışlarını təkmilləşdirməsinə kömək və monitorinq üçün İnklüziv Təhsil üzrə Monitorinq Aləti hazırlayıb. 12 rayondan olan məmurlar və 100 məntəqə nəzarətçisi və nümayəndəsi üçün təlimlər keçirilib və nəticədə, əməl olunan Uşaq Yönümlü Məktəb (UYM) standartlarının xüsusi çəkisi 2013-cü ildə üç şimal regionunda 14 faizdən 20 faizə qalxıb.

- **Məktəblərin, siniflərin və digər təlim mühitlərinin uyğunlaşdırılması və hamı üçün əlçatan və münasib olması.** Təlim prosesinin əlçatanlığını yaxşılaşdırmaq üçün təhsil infrastrukturunun layihələndirilməsi, tikintisi və ya təmiri zamanı əlçatanlıq və universal dizayn meyarlarının icbari olması, əlçatan təlim materiallarının, münasib və adekvat köməkçi cihaz və texnologiyaların təmin edilməsi.

Nümunə: Özbəkistan hökuməti 2004-2009-cu illərdə Məktəblərin İnkişafı üzrə Dövlət Proqramında fiziki əlçatanlıq tələbini - bütün məktəblərdə rampaların və fiziki əlçatanlığı təmin edən digər vasitələrin təmin edilməsi tələbini daxil etdi. Bu, bütün uşaqları əhatə etmək üçün bir çox məktəblərin təchiz olunmasına -

planlara daxil edilən bu tələbləri nəzərə almaqla həm köhnə binaların təmirinə, həm də yenilərinin tikilməsinə gətirib çıxarmışdır.

Nümunə: Xorvatiya Hökuməti köhnə məktəbləri təmir etmiş və onlardan 200-nü "əngəlsiz" elan etmişdir. UNİCEF Xorvatiyada yerli icmaları öz məktəblərinə fiziki əlçatanlıq vasitələrini daxil etmək üçün resurslar cəlb etməyə səlahiyyətləndirmək məqsədilə onlarla işləyir.

- Bütün uşaqların ümumi təhsil sistemində bərabər əsaslarla öyrənməsi üçün **dəstək və uyğunlaşdırma təmin edən, ayrı-seçkiliyə yol verməyən tədbirlər**

  Nümunə: Rumıniya spesifik infrastruktur layihələrinə pul ayırmaq üçün yerli büdcələr yaradıb. Bu, məktəblərin maliyyələşdirilməsinin lokallaşdırılması effektini əks etdirməklə, rayonlara öz layihələrini maliyyələşdirmək imkanı verir. Vyetnamda Hökumət məktəblərə əlilliyi olan uşaqların inklüziv təhsilinə dəstək göstərmək üçün maliyyə vəsaiti almaq imkanı verən sirkulyar sənəd dərc edib.

- **Müəllim hazırlığına dəstək.** Davamlı dəstək, mentorluq və monitorinq vasitəsilə inklüziv mühitdə tədris etmək üçün təchiz edilmiş kifayət qədər hazırlıqlı müəllimlərin olmasını təmin etmək. Müəllim hazırlığı proqramlarında əlilliyi olan uşaqların təhsilinin müəllim hazırlığı kurrikulumunun çoxsahəli tərkib hissəsi kimi daxil edilməsini təmin etmək və həm ümumi, həm xüsusi ehtiyacları olan BÜTÜN təhsilalanların (o cümlədən əlilliyi olanlar) yaşadıqları ərazidə adi məktəblərdə təlimini təşviq etmək

  Nümunə: 2013-cü ildə UNİCEF Uqandada müəllim kollektivlərində əlilliyi nəzərə alan metodologiya üzrə "təlimçilərin təlimi" seminarına dəstək göstərib. 180 müəllim əhatə edilib.

  Nümunə: Ruandada UNİCEF inklüziv təhsil üzrə spesifik məzmuna malik *Fəal Təlim-Tədris üzrə Vəsaiti* hazırlamaq üçün yerli orqanlarla işləyib. Bu vəsait ölkə boyunca bütün müəllim hazırlığı müəssisələrinə yayılır. Paralel olaraq, onlar seçilmiş **Uşaq Yönümlü Məktəblərdə** əlilliyi olan uşaqları cəlb etmək üçün birgə tədris metodlarının və üsullarının tətbiqi və daha cəlbedici sinif otaqlarının yaradılması ilə bağlı "müəllimlərin təliminə" dəstək göstərib.

### İnklüziv təhsil sahəsində müəllim hazırlığı

Tədqiqatlar göstərir ki, inklüziv təhsil üzrə təlim keçmiş müəllimlər və direktorlar təlim keçməmiş həmkarları ilə müqayisədə daha müsbət yanaşmalara və inklüziv düşüncələrə malikdir. Bundan əlavə, ən müsbət yanaşmalar isə inklüziv təhsili faktiki olaraq təcrübədən keçirmiş müəllim və direktorlara məxsus olub.

- **Bilik və dəstəyin üfüqi mübadiləsinin təşviqi**

  Nümunə: Serbiyada İnklüziv Təhsil Şəbəkəsi xidmətlərin qüsursuz təmin edilməsi, habelə bütün maraqlı tərəflər arasında bilik və təcrübələrin ötürülməsini təmin etmək üçün bütün sinif səviyyələrində təhsilverənləri, eləcə də uşaqlara dəstək göstərən vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirir.

- Uşaqların məktəbdə iştirakına dəstək göstərmək üçün **sektorlar arasında xidmətlərin əlaqələndirilməsi**

  Nümunə: Əlilliyi olan uşaqlar üzrə nazirliklərarası işçi qrup əlilliyin tərifini ƏŞHK konvensiyasına uyğunlaşdırmaq üçün birlikdə işləyib və qrupun hazırkı məqsədi xidmətləri təkmilləşdirmək və dəstək xidmətləri üçün əlilliyi olan uşaqları və onların ailələrini inklüziv məktəblərə getməyə həvəsləndirən tövsiyələr verməkdir.

- **Tərəfdaşlıqları gücləndirmək.** Ayrı-seçkiliyi möhkəmləndirən və ömrünü uzadan münasibətlərlə mübarizə aparmaq və stiqma və mənfi təsəvvürləri aradan qaldırmaq üçün müxtəlif səviyyələrdə

müxtəlif maraqlı tərəflərlə işləmək.

Nümunə: Monteneqroda "Məsələ qabiliyyətdir!" kampaniyası bərabərlik və inklüzivliyə mane olan ənənəvi və mədəni əngəlləri aradan qaldırmaq üçün 100-dən yuxarı milli qurumu, o cümlədən Prezident və Baş naziri, əlilliyi olan uşaqları və onların ailələrini bir araya gətirdi. Kampaniya barədə ətraflı məlumat üçün: http://www.unicef.org/montenegro/15868.html.

- **Erkən uşaqlıq dövründə inklüziv qayğı və təhsil proqramlarının təşviqi.** İnklüziv təhsilə xüsusi diqqət yetirməklə, UNİCEF-in bir neçə ölkə üzrə nümayəndəliyi erkən uşaqlıq dövründə inkişaf komponentini daxil etmək üçün hökumətlərl' yaxından işləyib. Proqram əlilliyi olan uşaqlar üçün fərdi tədris planlarının hazırlanmasına, ailələr üçün dəstək xidmətlərinin yaradılmasına və əlilliyi olan uşaqlar üçün internat məktəblərinin əsaslı şəkildə dəyişdirilməsinə dəstək göstərib. UNİCEF əlilliyin müəyyənləşdirilməsi modelinin (xidmətlər və müavinətlər üçün uyğunluğun qiymətləndirilməsi üçün) hazırlanmasında Əmək Nazirliklərinə köməklik göstərib və əlilliyi olan uşaqlarla bağlı təsəvvür və münasibətlərin keyfiyyət yönümlü qiymətləndirilməsi üçün ölkə miqyaslı təşviqat kampaniyasını həyata keçirib.

Nümunə: Misirdə "Uşaq Yönümlü Məktəblər" təşəbbüsləri çərçivəsində əlilliyi olan uşaqların cəlb olunmasına və məktəbəqədər və icma əsaslı təhsil üzrə keyfiyyət standartlarına xüsusi diqqət yetirməklə bu təşəbbüsün yayılmasına və miqyasının genişləndirilməsinə güclü diqqət yetirilir.

## Erkən Uşaqlıq Dövrü İnkişafı üzrə İnklüziv Mərkəz[97]

"Little Rock" İnklüziv Erkən Uşaqlıq Dövrü İnkişafı Mərkəzi 2003-cü ildə Keniyanın Nayrobi şəhərində Afrikanın ən böyük gecəqondularından biri olan Kiberada yaradılıb. O, ibtidai təhsilə başlamaq üçün təməl bacarıqlara malik olmayan uşaqlar üçün qurulub və sonralar icmanın inklüzivləşməsinə gətirib çıxaran inklüziv yanaşma ilə yaradılıb. 0-8 yaşlı uşaqlara yönəlir və şagirdlərin üçdə biri əlilliyi olan uşaqlardır. Valideynlərin dəstək qrupu əlilliyin daha yaxşı başa düşülməsinə kömək edir və ailələrə səhiyyə və məşğulluq imkanlarından istifadə etməkdə dəstək göstərir. "Little Rock" mərkəzinin uşaq və ailələrə göstərdiyi dəstək Erkən Uşaqlıq Məktəbini bitirdikdən sonra başa çatmır, çünki onlar "Little Rock" kitabxanasından istifadə etməyə davam edir, dərssonrası repetitorluqdan yararlanır və idman və yaradıcılıq məşğələlərində iştirak edirlər. 2006-cı ildən etibarən "AbleChildAfrica" beynəlxalq qeyri-hökumət təşkilatı maliyyə yardımı, xüsusi avadanlıqlar, mentorluq və təlim vasitəsilə potensialın gücləndirilməsi tədbirləri təmin etməklə "Little Rock" mərkəzi ilə əməkdaşlıq edir. *"Litte Rock" mərkəzinin keys təhlillərindən bəziləri ilə onların veb-saytında tanış ola bilərsiniz:*

- Bütün uşaqların, o cümlədən əlilliyi olan uşaqların təhsili üçün **bir nazirliyin və təhsil sisteminin cavabdeh olması istiqamətində Təhsil Nazirliyi ilə təşviqat aparmaq**.

Nümunə: 2009-cu ilin avqust ayında Serbiyanın Təhsil və Elm Nazirliyi "Təhsil sisteminin əsasları haqqında" Qanun qəbul etdi. Balkan regionunda unikal olan bu qanun inklüziv təhsil sistemi üçün hüquqi çərçivə təmin etdi. Yeni qanun ümumi təhsil sistemində bütün uşaqların qeydiyyatını dəstəkləyir.[96]

- **Uşaqların iştirakının təşviqi.** Əlilliyi olan uşaqları qərarların qəbulu prosesinə cəlb etmək və məktəblərin idarəetmə sistemlərinə əlilliyi olan uşaqların, onların valideynlərinin, əlil təşkilatlarının və icmaların səmərəli iştirakı ilə bağlı təminatların daxil edilməsini təmin etmək.

Nümunə: Qeyd olunduğu kimi, Monteneqrodakı "Məsələ qabiliyyətdir!" kampaniyasının tərkib elementlərindən biri kampaniyanın planlaşdırılması və icra edilməsinin bütün aspektlərində əlilliyi olan uşaqların və gənclərin iştirakı və liderliyi idi.

İnklüziv təhsillə bağlı müzakirələr şübhəsiz ki, əlilliyi olan uşaqların təhsili barədə maarifləndirmədə önəmli rol oynayıb. Lakin yadda saxlamaq lazımdır ki, inklüziv təhsil müstəsna olaraq əlilliyi olan uşaqlara yönələn təhsil yanaşması və ya fəlsəfəsi deyil.  Bu, bütün uşaqların, xüsusilə təcrid olunmuş qruplardan (məs., qızlar və ya yerli aborigen icmaların uşaqları) olan uşaqların təhsil hüququna nail olmaq üçün fundamental əhəmiyyət daşıyan yanaşmadır.

Yadda saxlayın ki, inklüziv təhsil müstəsna olaraq əlilliyi olan uşaqlara yönələn təhsil yanaşması və ya fəlsəfəsi deyil.  Bu, BÜTÜN uşaqların təhsil hüququna nail olmaq üçün fundamental əhəmiyyət daşıyan yanaşmadır.

Əlilliyi olan uşaqlar təcrid oluna yeganə qrup deyil, həmçinin yekcins qrup da deyil. Onlar özlərinin ümumi kimliyinin digər aspektləri, məsələn, gender, iqtisadi vəziyyət və ya etnik mənsubiyyət və ya bu amillərin bir neçəsinin mövcudluğu ilə daha çox təqdim oluna bilər.  Bu qruplardan bir və ya bir neçəsinə mənsub olmaq onların zəifliyini artırır və təhsil hüququna investisiya zamanı bu cür çoxtərəfli zəifliklər nəzərə alınmalıdır. Əlilliyi təcridolunmanın ayrıca bir forması kimi deyil, fərqliliyin və ayrı-seçkiliyin doğurduğu çoxsaylı məsələlərdən biri və təcridolunma və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması strategiyası kimi qəbul etmək faydalıdır. "İnklüziv təhsil diqqətin xüsusi bir qrupa yönəldilməsindən təlim və iştirakla bağlı əngəllərin aradan qaldırılmasına yönəldilməsi istiqamətində keçidi ehtiva edir."[102]

İnklüziv təhsil əvvəlcə sadəcə bir qərardır və yalnız sonradan praktikaya çevrilir

Resursların məhdud olduğu kontekstlərin təcrübəsi göstərir ki, müəllimlər özlərini və icmalarını "resurslarla zəngin" hesab etdikdə, inklüziv təhsil barədə daha həvəsli ola və yuxarıdan təlimat gözləmək əvəzinə problem həll etmə yanaşmasına üstünlük verə bilər. Məsələn, Lesotoda aparılmış bir təcrübə göstərdi ki, müəllimlərdə Xristianlıq vəzifələri və icma məsuliyyəti hissi güclüdür və buna görə də buna fərdi inkişafdan daha yüksək prioritet verildi. Bu isə, onları resursların məhdudluğuna və say artıqlığına baxmayaraq, əlilliyi olan uşaqların cəlb edilməsini təmin etmək üçün gərgin işləməyə həvəsləndirdi. [104]Müəllimlər əlilliyi olan uşaqların öyrənməyi bacardığını və bu hüquqlarının mövcud olduğunu anladıqda, adətən mənfi münasibətlər müsbətə doğru dəyişir. Onlar güclü mənəvi vəzifə və öhdəlik hiss edirlər.

İnklüzivlik yeni ideya deyil. İcmalar inklüzivliyi əsrlərlə təcrübədən keçiriblər. Məsələn, Afrikada aborigen əhalinin təhsili inklüziv olub və hazırda da inklüzivdir.

İnklüziv məktəbəqədər proqramlar, məktəb və təlim mühitinə çıxış imkanı, uşaqyönümlü tədris, pedaqogika, icmanın cəlb olunması və planlaşdırma, monitorinq və qiymətləndirmə bu vəsaitin 9-14-cü nəşrlərində ətraflı müzakirə ediləcək.

Qeydlər

# VI. İnklüziv təhsilin UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması

## Əsas məqamlar

- *İnklüziv təhsil UNİCEF-in bütün uşaqların hüquqlarının həyata keçirilməsi missiyasının və bərabərlik gündəliyinin təməlində dayanır.*
- *İnklüziv təhsil UNİCEF-in əlillik gündəliyi ilə uzlaşır, çünki hər ikisi insan hüquqlarına əsaslanan yanaşmaya və inklüziv inkişaf çərçivəsinə söykənir.*
- *İnklüzivlik "Uşaq Yönümlü Məktəblər" təşəbbüsünün və 2014-2017-ci illər üzrə Strateji Planın (Nəticə 5) təməl komponentlərindən biridir.*

İnklüziv təhsil UNİCEF-in hər bir şagirdin sağlam, təhsilli və təhlükəsiz şəkildə böyüyə bildiyi və öz tam potensialına çata bildiyi bir dünyanın qurulması ilə bağlı gələcəyə baxışının təməlində dayanır. Bu, UNİCEF-in missiyasında aydın bəyan olunur: "BMT-nin Baş Assambleyası UNİCEF-ə uşaq hüquqlarının müdafiəsini təşviq etməyə, onların təməl ehtiyaclarının qarşılanmasına kömək etməyə və onların öz tam potensialına çatması üçün imkanlarını genişləndirməyə səlahiyyətləndirmişdir."[106]

Təşkilatın missiyasına və bərabərliyə - ən təcrid olunmuş qrupların əhatə olunmasına yetirdiyi xüsusi diqqətə uyğun olaraq, UNİCEF-in mandatı bütün uşaqların, o cümlədən əlilliyi olan uşaqların hüquqlarını həyata keçirməkdə hökumətə və vətəndaş cəmiyyətinə dəstək göstərməkdir. Bu o deməkdir ki, təhsil sahəsində bütün proqramlar hər bir uşaq üçün keyfiyyətli və inklüziv təhsilə çıxışı təmin etməlidir.  Buna görə də, inklüziv təhsil 2014-2017-ci illər üzrə Strateji Planın 5-ci Nəticəsi vasitəsilə UNİCEF-in gündəliyinin mərkəzində dayanır. Bu Nəticə inklüziv təhsil və əlilliyi olan uşaqları xüsusilə qeyd edən göstəricilərə malikdir.

Bu bölmədə inklüziv təhsilin təşkilatın əlillik və təhsil gündəlikləri ilə necə uzlaşdığı təsvir olunur.

## UNİCEF-in Əlillik Gündəliyi

Əlilliyi olan uşaqların hüquqlarının qorunması UNİCEF üçün yeni bir sahə deyil. Bu, "Uşaq hüquqları haqqında" Konvensiyanın qüvvəyə mindiyi tarixdən bəri bizim proqramımıza daxil olmuşdur. Bu fəaliyyət "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın qəbulundan sonra daha da güclənmişdir.

UNİCEF "əlillik" terminindən ƏŞHK-da əlilliyə verilən tərifə (Maddə 1) uyğun olaraq istifadə edir: "Əlilliyi olan şəxslər  müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır."108

Əlillik gündəliyinin əsas məqsədləri əlilliyi UNİCEF-in bütün siyasət və proqramlarında (həm inkişaf, həm də humanitar fəaliyyətlərdə) inteqrasiya etmək və əlilliyi olan uşaqların hüquqları üzrə rəhbərliyi inkişaf etdirmək, heyət və tərəfdaşlar arasında potensialı gücləndirməkdir.

UNİCEF-in əlillik sahəsində fəaliyyəti əlilliyin sosial modelinə uyğun olaraq insan hüquqlarına əsaslanan yanaşmaya və inklüziv inkişaf çərçivəsinə söykənir. UNİCEF əlilliyi olan şəxslərin, o cümlədən uşaqların, yeniyetmələrin və qadınların UNİCEF-in işində hüquq sahibləri kimi faydalı iştirakına ("Biz olmadan bizim barəmizdə heç bir şey" şüarına uyğun olaraq) səy göstərir. UNİCEF qəbul edir ki, bərabərliyin və inklüzivliyin kökündə şəxsi, ictimai və sosial münasibətlər dayanır. Bu səbəbdən, fərd, sektor və cəmiyyət səviyyələrində yanlış təsəvvürlər, stiqma, ayrı-seçkilik və mənfi stereotip münasibət və təcrübələrin azaldılması üçün davamlı səylər göstərilir. Təşkilat inanır ki, əlilliyi olan uşaqlarla bağlı cəmiyyətdəki təsəvvürləri və münasibətləri dəyişmək üçün təşviqat, sosial səfərbərlik və davranış xarakterli və sosial dəyişiklik strategiyalarını özündə əks etdirən inkişaf tədbirləri barədə effektiv kommunikasiya zəruridir. Həmçinin qəbul edilir ki, müsbət münasibətlərin nümayiş etdirilməsi və möhkəmləndirilməsi o zaman ən yüksək potensial təsirə malik olur ki, onlar uşaqlara erkən yaşdan aşılansın.

İnklüziv təhsil UNİCEF-in əlillik gündəliyi ilə uzlaşır, çünki hər ikisi insan hüquqlarına əsaslanan yanaşmaya və inklüziv inkişaf çərçivəsinə söykənir. Onlar əlilliyi olan şəxsləri imtiyazların passiv resipiyentləri kimi deyil, hüquq sahibləri kimi və öz inkişaflarının əsas iştirakçıları kimi qəbul edir və həm dövlət, həm də qeyri-dövlət tərəflərin insan hüquqları ilə bağlı müvafiq öhdəliklərini müəyyən edir.

UNİCEF-in gündəliyi barədə daha ətraflı məlumat üçün http://www.unicef.org/disabilities/ keçidinə daxil olun və aşağıdakı videoları izləyin:

- Əlillik həyat siklində (video).
- Uşaqların səsi (video).
- Bütün heyətin əlillik üzrə oriyentasiyası (video).

## UNİCEF-in Təhsil Gündəliyi

UNİCEF keyfiyyətli inklüziv təhsili hər bir məktəbin hər bir uşaq üçün çalışmasına imkan verən və uşaqların öz tam potensiallarına çatmasına şərait yaradan proses və xidmətlər kimi müəyyən edir. Son 15 il ərzində, "Uşaq Yönümlü Məktəblər" (UYM) yanaşması UNİCEF-in uşaqyönümlü, inklüziv, təhlükəsiz və iştiraka şərait yaradan məktəblərin formalaşmasını təşviq etmək, dəstək göstərmək və tətbiq etmək üçün istifadə etdiyi əsas vasitə olmuşdur.

UYM-in arxasındakı konsepsiya sadədir: Məktəblər uşaqların ali maraqlarına uyğun fəaliyyət göstərməlidir. Onlar elə planlaşdırılmalı və idarə edilməlidir ki, bütün uşaqların təhlükəsiz, sağlam, cəlbedici və qorunan bir mühitdə öyrənməsini təmin etsin.[110] UYM yanaşması uşağın şagird kimi bütün ehtiyaclarına yönəlir ki, şagird öz potensialını inkişaf etdirə bilsin. Bütövlükdə məqsəd adekvat hazırlıq keçmiş müəllimlərə malik olan və təlim üçün adekvat resurslarla, fiziki, emosional və sosial şəraitlə dəstəklənən uşaqyönümlü mühiti təşviq etməkdir. UYM çoxsahəli yanaşma olub, təhsilə çıxış imkanını, keyfiyyəti və təlim nəticələrini yaxşılaşdırmaq üçün digər sahələrdə, o cümlədən sağlamlıq, qidalanma, su təchizatı və gigiyena, habelə müdafiə sahəsində bir çox fəaliyyətləri əhatəli tədbirlər paketində inteqrə edir. Lakin UYM modeli "bir ölçü hamıya uyğundur" yanaşmasına söykənmir və UYM-lərin qurulması və fəaliyyət tərzi ölkədən-ölkəyə fərqli ola bilər.[111]

Uşaq Yönümlü Məktəblər dörd əsas prinsipə (bax: aşağıdakı qutu) söykənir və təhsil tədbirlərinin mərkəzində mütləq uşaq dayanır. Bu prinsip vurğulayır ki, heç bir uşaq özünün cinsi, irqi, mədəniyyəti, dili, bacarığı və ya sosial statusu səbəbilə təhsildən kənarda qalmamalıdır.

## Uşaq Yönümlü Məktəblərin əsas prinsipləri:

- **Uşaqların diqqət mərkəzində olması:** Uşağın maraqlarının təmin edilməsi təhsildə bütün qərarların qəbulunda həlledici əhəmiyyət daşıyır.
- **Demokratik iştirak:** Hüquq sahibləri olaraq, uşaqlar və onların hüquqlarına dəstək göstərənlər onların təhsilinin forması və mahiyyəti barədə mövqeyini bildirmək imkanına malik olmalıdır.
- **İnklüzivlik:** Bütün uşaqlar təhsil hüququna malikdir. Təhsilə çıxış imkanı cəmiyyətin uşaqlara verdiyi bir imtiyaz deyil. Bu, cəmiyyətin bütün uşaqlar qarşısında yerinə yetirməli olduğu bir vəzifədir.
- **Müdafiə:** Bütün uşaqlar böyüyə və öz potensiallarına çata bildikləri bir mühitdə öyrənməlidir. Onlar həm fiziki, həm də psixoloji baxımdan pis rəftardan qorunmaq hüququna malikdir.

Inklüziv sistemlər o sistemlərdir ki, "bütün uşaqlara, o cümlədən ciddi əlillikləri olan və əlverişsiz vəziyyətdə olan uşaqlara uğurla təhsil vermək qabiliyyətinə malik olan uşaq yönümlü pedaqogika əsasında qurulmuş məktəblərə malikdir. Bu məktəblərin üstünlüyü onların sadəcə bütün uşaqları keyfiyyətli inklüziv təhsillə təmin etmək qabiliyyəti deyil. Onların yaradılması həm də ayrı-seçkiliyə yol verən münasibətlərin dəyişdirilməsinə kömək etmək, əlverişli mühitə malik icmalar yaratmaq və inklüziv cəmiyyət formalaşdırmaq üçün çox vacib addımdır."

UYM proqramı aşağıdakı dörd sahədə dəyişikliyin yaradılmasına yönəlir: Pedaqogika (təlim-tədris metodları); təlim mühiti (sağlam, təhlükəsiz və qoruyan), məktəb mühiti və icma ilə əlaqələr; infrastruktur və dizayn.

Bütün bu dörd sahədə inklüziv təhsil məsələn, aşağıdakılar vasitəsilə inkişaf etdirilir:

- **Pedaqogika** – uşaq yönümlü metodologiyalar üçün müəllim hazırlığının təşviqi və təlim-tədrisin fərdi uşağın ehtiyaclarına uyğunlaşdırılmasını təmin etmək.
- **Təlim mühiti** – sağlamlıq və təhlükəsizlik risklərinə qarşı müdafiə tədbirlərinin tətbiqi, eləcə də uşaqlara qarşı zorakılığın, bullinqin, istismarın və cismani cəzanın qarşısının alınması.
- **Məktəb mühiti və icma ilə əlaqələr** - məktəbdən kənarda qalan uşaqları tapıb məktəbə gətirmək, valideynləri məktəbin idarə edilməsinə cəlb etmək, bütün uşaqlara hörmət edilən məktəb mühitlərini təşviq etmək üçün icma və valideynlərlə əlaqələrin yaradılması və s.
- **İnfrastruktur və dizayn** - bütün uşaqlar üçün təhlükəsiz, inklüziv, əlverişli mühitlər təmin edən uşaqyönümlü məktəb dizaynları və memarlığını təşviq və təbliğ etmək; təlim mühitlərinə şərait yaradılması, o cümlədən fiziki və əqli/öyrənmə məhdudiyyətləri olan uşaqların yerləşdirilməsi.

**Ölkədən nümunə:** Proqram icrasının və təşviqatın birləşdirilməsi: Uşaq yönümlü inklüziv təhsil üçün İslamabad öhdəliyi

*Niaz Ullah Xan, Ölkə Direktoru, "Sightsavers" Pakistan Nümayəndəliyi, 2011* [114]

2003-cü ildən bəri, "Sightsavers" beynəlxalq qeyri-hökumət təşkilatı İslamabadda Sosial Rifah və Xüsusi Təhsil Nazirliyi ilə inklüziv təhsil üzərində çalışır və 2009-cu ildə bir sıra maraqlı tərəflərlə birlikdə onlar milli səviyyədə İnklüziv Təhsil Qrupu yaradıb. UNİCEF və UNESCO da daxil olmaqla, bir sıra təşkilatlarla önəmli əlaqələr qurulub. Onlar əsas diqqəti milli təhsil sistemində UYM-in təşviqinə yönəldib və UYM və inklüziv təhsilin bir-biri ilə uzlaşdığını təsdiq edib. Beləliklə, İnklüziv Təhsil Qrupu Milli Uşaqyönümlü İnklüziv Təhsil Qrupuna çevrilərək, bütün təcrid olunmuş uşaqların təhsilin bütün mərhələlərinə və bütün aspektlərinə cəlb olunması, məktəbdən kənarda qalanların təhsilə cəlb olunmasını təmin etmək üçün tədbirlər görüb.
2010-cu ilin noyabrında Təhsil Nazirliyinin UNİCEF, UNESCO və "Sightsavers" təşkilatı ilə birlikdə təşkil etdiyi yüksək səviyyəli milli məsləhətləşmələr Uşaq Yönümlü Inklüziv Təhsil üçün İslamabad Öhdəliyi ilə nəticələndi. Bu sənəd əyalət təhsil şöbələri ilə birlikdə Federal Təhsil Naziri tərəfindən imzalandı və birbaşa Hökumətin üzərinə Pakistanda bütün uşaqlar üçün inklüziv təhsili təşviq etmək öhdəliyini qoydu.

UNİCEF-in Mərkəzi Avropa Regionu və MDB regionundakı fəaliyyəti üçün bu, regiondakı hər bir uşağın "Hamı üçün Təhsil" və "Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi"nin əsas prinsipləri əsasında keyfiyyətli ilkin təhsil almaq və tamamlamaq imkanına malik olduğunu əks etdirən gələcəyə baxış deməkdir.

Fəaliyyətə çağırış: Təhsil bərabərliyi

10-13 dekabr 2013-cü il tarixdən etibarən Avropa və Mərkəzi Asiyanın 20 ölkəsindən nümayəndələr və regiondan və kənardan tərəfdaşlar Türkiyənin İstanbul şəhərində keçirilən "Bütün uşaqların keyfiyyətli təhsilə cəlb olunması" mövzusunda Nazirlərin Regional Təhsil Konfransında bir araya gəldilər. Konfrans uşaqların təhsildən kənarda qoyulmasına son qoymaq və hər bir uşağın keyfiyyətli təhsilə cəlb olunmasını təmin etmək üçün bu Fəaliyyətə Çağırışı elan etdi.

http://education-equity.org/wp-content/uploads/2013/12/EducationEquityNow_Call_for_action

UNİCEF-in 2014-2017-ci illər üzrə sonuncu Strateji Planında Nəticə 5-də inklüziv təhsil qeyd olunur ("təlim nəticələrinin yaxşılaşdırılması və bərabər və inklüziv təhsil") və P5. e.3 nömrəli nəticə göstəricisində "əlilliyi olan uşaqları əhatə edən inklüziv təhsil siyasətlərinə malik ölkələr" barədə hesabatverməyə çağırır. Aydındır ki, UNİCEF-in təhsil gündəliyi həqiqətən də inklüziv təhsilə və müvafiq siyasətlərin qəbulu üçün hökumətlərlə əməkdaşlığa yönəlir.

## UNİCEF-in əlilliyi olan uşaqlar və inklüziv təhsillə bağlı cari fəaliyyəti

Ən çox təcrid olunan uşaqlar üçün bərabərliyə və nəticələrin əldə olunması öhdəliyinə diqqəti artıran UNİCEF qlobal, regional və ölkə səviyyələrində əlilliyi olan uşaqlar və inklüziv təhsillə bağlı işini gücləndirir.

Qlobal səviyyədə UNİCEF Əlilliyi olan Uşaqlar üzrə Qlobal Tərəfdaşlığın (2012) yaradılması səylərinə rəhbərlik edib. 2013-cü ildə UNİCEF özünün "*Dünya uşaqlarının vəziyyəti*" hesabatını dərc edib. Hesabatda əlilliyi olan uşaqlara xüsusi diqqət yetirilib.

UNİCEF uşaqlar arasında əlilliyin ölçülməsi və məktəb mühiti barədə ev təsərrüfatı sorğusu modullarının, əlilliyin qiymətləndirilməsi üzrə alətlər dəstinin və əlilliyi inteqrə edən Təhsil İdarəçiliyi üzrə Məlumat Sistemləri barədə təlimatın hazırlanması vasitəsilə əlilliyi olan uşaqlar üzrə məlumatların gücləndirilməsi istiqamətində çalışır. İnklüziv təhsillə bağlı bu seriyadan əlavə, girişi əlçatan olan məktəblərin tikintisi ilə bağlı texniki təlimat hazırlanır və köməkçi cihazlar, texnologiyalar və birgə dəstək üzrə məlumatlar bazası qurulur. Əlçatan təlim materiallarının hazırlanması üçün innovativ həllərin hazırlanması və sınaqdan keçirilməsinə başlanılıb.

2013-cü ildə UNİCEF-in 70 ölkə nümayəndəliyi əlilliyi olan uşaqlar və inklüziv təhsillə bağlı proqramlar barədə hesabat veriblər. Proqramlar əlilliyin skrininqi/qiymətləndirilməsi, inklüziv təhsil siyasətlərinin hazırlanması, sektor planları, təhsil və əlilliyi olan uşaqlar üzrə məlumatların gücləndirilməsi, inklüziv təhsil üzrə potensialın gücləndirilməsi və ictimai maarifləndirmə kampaniyalarını əhatə edib.

“Məktəbdən Kənardakı Uşaqlar” Təşəbbüsü vasitəsilə UNİCEF və tərəfdaşları kənarda qalan oğlan və qızları müəyyən etmək və onların tam potensiallarına çatmasına kömək etmək üçün innovativ yanaşmalardan istifadə edir. 2014-cü ildə bu təşəbbüsdə, habelə Şərqi Karib Dövlətlərinin subregional təşəbbüsündə və Mərkəzi Avropa və MDB-nin regional təşəbbüsündə 35-dən artıq ölkə iştirak edirdi. " Məktəbdən Kənardakı Uşaqlar" təşəbbüsünün tədqiqatlarında, siyasət və proqram tədbirlərində məktəblərə əlilliyi olan uşaqların cəlb edilməsinin əhatə olunmasını təmin etmək vacibdir.



Bu vaxta qədər UNİCEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə regional ofisi inklüziv təhsillə bağlı işə uğurla rəhbərlik edib (xüsusilə əlilliyi olan uşaqlar üçün). 2012-ci ildə onlar "*Əlilliyi olan uşaqların təhsil hüququ: inklüziv təhsilə hüquqlara əsaslanan yanaşma*" adlı Mövqe sənədi dərc etdilər. Sənəd bir çox ölkələr və təşkilatlar tərəfindən inklüziv təhsilin təşviqi və reallaşdırılmasında önəmli istinad sənədi kimi istifadə edilir. Regionda baş verənləri daha yaxşı anlamaq üçün UNİCEF-in MŞA və MDB regional ofisi inklüziv təhsilin vəziyyətini öyrənmək məqsədilə ölkə nümayəndəlikləri ilə sorğu həyata keçirdi. Nəticələr əsasında regional ofis bir sıra önəmli təşviqat və planlaşdırma tədbirləri təşkil etdi. Buraya aşağıdakılar daxildir: inklüziv təhsil gündəliyinin icrası üçün regional tərəfdaşlara potensial strategiyaları qeyri-rəsmi şəkildə müzakirə etmək imkanı yaratmaq üçün iki günlük dəyirmi masa (2009); Moskvada "Əlilliyi olan uşaqların inklüziv təhsili" mövzusunda beynəlxalq konfrans (2011); Nyu-Yorkda ƏŞHK-nın İştirakçı Dövlətlərinin Konfransında paralel tədbir (2013); Cenevrədə İnsan Hüquqları üzrə Ali Komissarlığın İnsan Hüquqları Şurasının Ümumi Sessiyası (2013). Bu işə bütövlükdə bütün komanda tərəfindən nail olunsa da, nəticələrin uğurluluğu regional ofisin 2011-ci ildə müqavilə bağladığı inklüziv təhsil üzrə məsləhətçidən asılı olmuşdur.

Artıq 5-ci bölmədə təqdim olunan bəzi nümunələrdən göründüyü kimi, UNİCEF ölkə səviyyəsində də fəallığını artırır.

## Tərəfdaşlarımız

Çoxsaylı vətəndaş cəmiyyəti təşkilatları və hökumətlərdən əlavə, UNİCEF qlobal səviyyədə UNESCO və Təhsil naminə Qlobal Tərəfdaşlıq (GPE) ilə inklüziv təhsil sahəsində güclü əməkdaşlıq münasibətləri qurub.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə birlikdə, biz əlilliyi olan uşaqların digər uşaqlarla bərabər əsasda inklüziv təhsil almaq hüququ üzrə yüksək səviyyəli təşviqat işi aparır və daha əvvəl qeyd olunduğu kimi, UNESCO ilə birlikdə Əlilliyi olan Uşaqlar üzrə Qlobal Tərəfdaşlığın İnklüziv təhsil üzrə Işçi Qrupuna həmsədrlik edirik.

Əlilliyi olan Uşaqlar üzrə Qlobal Tərəfdaşlıq qlobal, regional və milli səviyyələrdə əlilliyi olan uşaqların hüquqlarını təşviq edən 240 təşkilatdan (beynəlxalq QHT-lər, milli və yerli QHT-lər, əlil təşkilatları, hökumətlər, elmi dairələr və özəl sektor) ibarət şəbəkədir. Hüquqlara əsaslanan yanaşmanı rəhbər tutaraq, Tərəfdaşlıq əlilliyi olan uşaqların hüquqlarının həm əlillik, həm də uşaq hüquqları hərəkatı tərəfindən əhatə edilməsini və prioritetləşdirilməsini təmin etmək məqsədilə təşviqat fəaliyyəti və birgə fəaliyyət üçün platforma təmin edir. Əlilliyi olan Uşaqlar üzrə Qlobal Tərəfdaşlıq barədə daha ətraflı məlumat üçün: http://www.unicef.org/disabilities/index_65319.html

UNİCEF Təhsil Naminə Qlobal Tərəfdaşlığın (GPE) inklüziv təhsil üzrə Fəaliyyətə Çağırışın təqdim olunmasında və inklüziv təhsil və əlilliyi olan uşaqlarla bağlı 1 nəticənin GPE-nin 2013-2015-ci illər üzrə icra planına daxil edilməsində fəal rol oynayıb. Bununla yanaşı, UNİCEF GPE-nin inklüziv təhsillə bağlı işinin həyata keçirilməsinə dəstək göstərmək üçün GPE-nin katibliyi və digər tərəfdaşlarla fəal əməkdaşlıq edir. GPE bütün uşaqların öz potensiallarına çataraq öz cəmiyyətlərinə töhfə verə bilməsi üçün onların keyfiyyətli təhsil üçün məktəbə getməsinə yönələn çoxtərəfli tərəfdaşlıqdır. GPE-nin tərəfdaşlarına inkişaf etməkdə olan ölkələr, ikitərəfli donorlar, çoxtərəfli qurumlar, vətəndaş cəmiyyəti təşkilatları/QHT-lər, müəllimlər, özəl fondlar və özəl sektor daxildir. 60-a yaxın aşağı gəlirli ölkə tərəfdaşlığın üzvləridir.[116]

UNİCEF-in vətəndaş cəmiyyəti təşkilatları ilə qlobal səviyyədə işi çox geniş olduğundan, sadalanması mümkün deyil. Lakin biz əlilliyi olan uşaqlar üzrə gündəliyin icrasında tərəfdaşlarımızı yüksək qiymətləndirir və onlara arxalanırıq.

2015-ci ildən sonrakı dövr üzrə inklüziv inkişaf gündəliyinin təşviq edilməsində vətəndaş cəmiyyəti ilə birgə çalışan UNİCEF inklüziv gündəlik, o cümlədən hamı üçün inklüziv təhsil üzrə təşviqat aparmaq üçün Beynəlxalq Əlillik İttifaqı və çoxsaylı digər tərəfdaşlarla yaxından əməkdaşlıq edir.

## IDDC İnklüziv Təhsil üzrə İşçi Qrup

Beynəlxalq Əlillik və İnkişaf Konsorsiumu (İDDC) əlillik və inkişaf sahəsində fəaliyyət göstərən 25 qeyri-hökumət təşkilatı, ümumi inkişaf sahəsində çalışan QHT-lər və əlil təşkilatlarından ibarət qlobal konsorsiumdur və dünyanın 100-dən artıq ölkəsində əlillik və inkişaf sahəsində işlərə dəstək göstərir. İnklüziv Təhsil üzrə İşçi Qrup haqqında məlumat və onların hazırladığı resurslarla tanış olmaq üçün aşağıdakı keçidə daxil ola bilərsiniz:
http://www.iddcconsortium.net/tags/inclusive-education-task-group

Regional səviyyəyə gəldikdə, UNİCEF əlilliyə ortaq yanaşması olan regional təşkilatlarla, o cümlədən Afrika İttifaqı ilə və Cənub-Şərqi Asiyada ASEAN təşkilatı ilə, qeyri-hökumət təşkilatları, universitetlər və regional donorlarla, o cümlədən Avstraliyanın DFAT və digər BMT agentlikləri ilə işləyir. O, həmçinin əlilliyi olan uşaqlar üzrə regional məlumatların hazırlanmasına və ölkələr arasında təcrübə mübadiləsinə, eləcə də ölkə nümayəndəliyi səviyyəsində əlilliyi olan uşaqlar üçün vahid sahələrarası proqramlaşdırmanın təmin edilməsinə dəstək göstərir.

Milli səviyyədə isə UNİCEF müvafiq nazirliklərlə və təhsil qurumları ilə, həmçinin əlilliyi olan şəxslərin və onların hüquqları üçün təşviqat aparan şəxslərin rəhbərlik etdiyi vətəndaş cəmiyyəti təşkilatları, habelə KİV-lə yazından işləyir:

## **Ölkədən nümunə:** İnklüziv təhsil üçün tərəfdaşlıq

- *Özbəkistanda* BMTİP və UNESCO inklüziv məktəblər üçün standartların və kurrikulumların hazırlanmasına birgə töhfə verib və inklüziv təhsil mütəxəssislərinin hazırlanması üzrə təşəbbüslərə rəhbərlik edib.
- *Zanzibarda* icma liderləri yerli məktəb tərəfindən qurulan İnklüziv Təhsil Komitəsinə qoşulmağa dəvət olunub. Bu, əlilliyi olan və olmayan şagirdlərin valideynləri, baş müəllim, müəllim və əlilliyi olan və olmayan bir və ya bir neçə şagirddən ibarətdir. İcma liderləri valideyn və müəllimlər tərəfindən cəlb olunan resurslarla yanaşı, icma resurslarını cəlb etmək üçün məktəblərin bu resurslarla əlaqələndirilməsinə böyük rol oynayıb.

**Daha ətraflı məlumat üçün bax:**

- http://www.unicef.org/disabilities/
- http://www.unicef.org/education/

## Qeydlər

# VII. Tez-tez verilən bir neçə suala cavab

**Qeyd:** Bu izahedici suallar gələcək kitabçalarda daha ətraflı izah ediləcək.

### İnklüziv və inteqrasiyalı təhsil arasındakı fərq nədir?

Əsas fərq təkcə iştirak etmək və həqiqətən iştirak edib öyrənmək arasındadır. İnklüziv məktəbdə uşaq məktəbin fəaliyyətlərində iştirak etmək imkanı qazanır, zəruri uyğunlaşdırmalar edilir, fərdi dəstək təmin edilir və uşaq özünü mühitin bir hissəsi kimi hiss edir. İnklüziv yanaşmalar məktəblərin və bütövlükdə təhsil sistemlərinin uyğunlaşmaq və bütün şagirdlərin, o cümlədən əlilliyi olan uşaqların tam iştirakını təmin etmək, eləcə də onların təhsil və sosial, mülki və mədəni hüquqlara hörmət etmək vəzifəsini ön plana çəkir. Əlavə və ayrıca fəaliyyətlər əvəzinə, resurslar iştirakı stimullaşdırmaq üçün istifadə olunur. Bu yolla, sinif otağında və daha geniş cəmiyyətdə müxtəliflik qəbul edilir və ona aktiv kimi yanaşılır.[118] [119]

### İnklüziv təhsil bütün təcrid olunmuş/həssas qruplara şamil edilir, yoxsa əsasən əlilliliyi olan şagirdlərə yönəlir?

Əlilliyi olan uşaqların təhsilə cəlb olunması səmərəli inklüziv təhsil yanaşmalarının hazırlanması üçün önəmli bir katalizator olsa da, inklüziv təhsil həqiqətən də uşaqların BÜTÜN qruplarının təhsilini ehtiva edir. Uyğunlaşa bilən və fərqli öyrənmə üslublarına və sürətlərinə cavab verən sistemlər bütün təhsilalanlar üçün faydalıdır.

### İnklüziv kurrikulumlar nəyi əhatə etməlidir?

İnklüziv kurrikulumlar uşağın koqnitiv, emosional və kreativ inkişafına yönəlməlidir və 21-ci əsr üçün təhsilin dörd sütununa əsaslanmalıdır: birlikdə öyrənməyi, həyata keçirməyi, iştirak etməyi və yaşamağı öyrənmək.

### İnklüziv təhsili həyata keçirmək üçün "doğru" yol varmı? Əməl etməli olduğumuz konkret bir plan varmı?

İnklüziv təhsildə əsas insan hüquqları alətləri ilə uzlaşan təməl dəyərlər, inanclar və prinsiplər mövcuddur. Lakin standart qayda yoxdur. Əslində, inklüziv təhsilin yerli mədəniyyət və kontekstlərə söykənərək və yerli resurslardan istifadə edərək birgə iştirakçılıq yolu ilə planlaşdırılması və icra edilməsi vacibdir.

### İnklüziv təhsil xüsusilə resursları məhdud olan və çoxlu çətinlikləri olan ölkələr üçün həqiqətən də praktikidirmi?

Bəli. İnklüziv təhsilin həyata keçirilməsinə dair ən yaxşı nümunələrdən bəziləri resursların məhdud olduğu mühitlərdə baş verir. Bu mühitlərdə icmalar bütün uşaqların təhsili barədə daha çox narahatdır və uyğunlaşa bilən sistemlər daha çox qəbul edilir. Qeyd olunmalıdır ki, inklüziv təhsili təşviq edən bir çox fəaliyyətlər çox aşağı xərclə və ya heç bir xərc yaratmadan həyata keçirilir.

### Bu qədər təhsil təşəbbüsləri və prioritetlərinin mövcudluğunu nəzərə alaraq, inklüziv təhsil nə dərəcədə önəmli və aktualdır?

Reallıqda bütün təhsil sistemi inklüziv olmalıdır, çünki inklüziv təhsil ümumi yanaşma və fəlsəfədir və buna görə də digər təşəbbüslərlə rəqabətdə olmamalıdır. Bu, hamı üçün keyfiyyətli inklüziv təhsil üçün qlobal gündəliyin mərkəzində yer alır və UNİCEF-in bərabərlik gündəliyi ilə uzlaşır, ən çox təcrid olunmuş və kənarda qalmış qrupların əhatə olunmasına yönəlir.

# VIII.Gələcək addımlar

İndi fəaliyyət zamanıdır. Siz inklüziv təhsilin əsaslarını vurğulamaq üçün təşviqat imkanlarını dərhal müəyyən edə və inklüziv təhsili UNİCEF-in missiyasının tərkib hissəsi kimi təşviq etməyə başlaya bilərsiniz. Təhsil sektoru üzrə plan və siyasətlər hazırlayan ölkələri əlilliyi olan uşaqların vəziyyəti barədə güclü təhlil vasitəsilə məlumatlandırmaq və məktəblərdə inklüzivliyi təşviq etmək üçün sistem miqyasında yanaşmaları tətbiq edərək sektorlar üzrə tədbirlər görmək mümkündür.

Daha ətraflı məlumat üçün aşağıdakı keçiddə "Əlilliklə bağlı situativ təhlillərə dair UNİCEF-in Rəhbər Qaydaları" ilə tanış ola bilərsiniz:
http://www.unicef.org/disabilities/index_71769.html.

Bu sahələr sizin inklüziv təhsil və əlilliyi olan uşaqlarla bağlı gördüyünüz və ya görəcəyiniz böyük işlərlə bağlı şərh verə biləcəyiniz sahələrdir. Buna görə də, inklüziv təhsilin nədən ibarət olduğunu, nəyi artıq etdiyimizi və əhatə etmədiyimizi, artıq yaxşı olan inklüziv təcrübələri daha necə inkişaf etdirə biləcəyimizi dərhal nəzərdən keçirmək vacibdir.

Harada yaşamağınızdan və işləməyinizdən asılı olaraq, hökuməti təmsil edən həmkarlarınıza və tərəfdaşlarınıza inklüziv təhsilin tətbiqi ilə bağlı dəstəyiniz sistemdə bir neçə nöqtədən başlayacaq, müxtəlif gündəlikləri əhatə edəcək və fərqli yanaşmalar tələb edəcək. Bəzi ölkələrdə, nklüziv təhsil təşəbbüsü kiçik məktəblərin necə fərq yarada biləcəyini modelləşdirməyə yönələn kiçik icma səyləri ilə başladığı halda, digər ölkələrdə, məsələn, Serbiya və Portuqaliyada hökumətin ideoloqları inklüziv təcrübələrə yol açılmasında həlledici rol oynayıb. UYM-in sistem səviyyəsində böyük təsirə nail olduğu az qala bütün ölkələrdə, məsələn, Makedoniya Yuqoslav Respublikasında UYM standartları və təcrübələri inklüziv təhsil sistemlərinin əsasını təşkil edir. Lakin başlama nöqtəsindən asılı olmayaraq, inklüziv təhsilin tətbiqi UNİCEF-in təhsil, əlil hüquqlarının təşviqi və digər sahələrdəki işinin kontekstində nəzərdən keçirilməlidir.

Məlumdur ki, bəzi ölkələrdə UNİCEF-in heyəti artıq əlilliyi olan uşaqlarla bağlı işlər görür, digərlərində isə işlər yenicə başlayıb. Lakin ən yeni strateji plan bizi səylərimizi daha da gücləndirmək üçün yaxşı çərçivə ilə təmin edir və bütün uşaqları əhatə etməli olan dəyişiklik nəzəriyyəsi təqdim edir. Əlillik yeni Strateji Planda təbii olaraq bütün Proqram Nəticələri ilə kəsişir və əlillik məsələləri mətn və əsas göstəricilər vasitəsilə daxil edilib (xüsusilə 5-ci (Təhsil) və 7-ci (Sosial inklüziya) nəticə sahələrində) və məqsəd bütün uşaqlar üçün bərabər nəticələrə nail olmaq kimi müəyyən edilib. İnklüziv təhsillə bağlı səylərimizi sürətləndirməyimiz və konkret icra strategiyalarına doğru irəliləməyimiz vacibdir.

UHK və ƏŞHK konvensiyalarına əməl edərək və heç bir istisna olmadan BÜTÜN uşaqların hüquqlarının təmin edilməsini, əməl edilməsini və qorunmasını təmin edərək, biz HAMI üçün inklüziv təhsil hüququnu reallaşdırırıq. Heyətimiz hərəkətə keçməsə və əlilliyi olan uşaqlar və gənclər, onların ailələri öz mövqelərini bildirə bilməsələr, buna nail olmaq mümkün deyil. Bütün işimizdə əlilliyi olan uşaqlar və gənclərə sadəcə hüquqların resipiyentləri kimi deyil, həm də dəyişiklik üçün əsl fəal tərəfdaş kimi yanaşmağımız vacibdir. Yalnız əlil icmasının "Biz olmadan bizim barəmizdə heç bir şey" şüarına hörmət edərək biz hamını həqiqətən əhatə edən faydalı iş görə bilərik.

## Məşğələ

Bu sahədə ilk addımınız olaraq, zəhmət olmasa, aşağıdakı ifadə barədə düşünün və aşağıdakı sətirləri doldurun. "Öz ölkəmdə inklüziv təhsili icra etmək üçün..."

# Əlavə resurslar

İnklüziv təhsil barədə əlavə resurslar üçün UNİCEF-in əhatəli məlumatlar bazasına nəzər salın: www.inclusive-education.org.

İnklüziv təhsili əhatə edən əlavə onlayn bilik icmaları və veb platformalar aşağıdakılardır, lakin bunlarla məhdudlaşmır:

- **‘Əlilliyi olan şəxslər üçün inklüziv cəmiyyətlərin yaradılması’**, UNESCO və UNICEF-in təşkil etdiyi bilik icması (http://www.wsis-community.org/pg/groups/584509/building-inclusive-societies-for-persons-with-disabilities/)
- **“Enabling Education” şəbəkəsi** (EENET): İnklüziv təhsillə bağlı üstünlük təşkil edən Şimal-Cənub məlumat axınına cavab olaraq, 1997-ci ildə yaradılmış informasiya mübadiləsi şəbəkəsi Cənub-Cənub təlimini və Cənub-Şimal məlumat axınını təşviq edir. Şəbəkənin təməlində duran inanc bundan ibarətdir ki, sərt və bürokratik sistemlərin maneə təşkil etdiyi çoxsaylı Şimal ölkələri ilə müqayisədə iqtisadi cəhətdən daha yoxsul ölkələrdə inklüziv təhsilə dair çox zaman daha yaxşı nümunələr mövcud olur. EENET aydın müəyyən edilmiş və radikal dəyər, inanc və prinsiplərə əməl edir. Onun xəbər bülleteni (“Enabling Education”) və veb saytı inklüziv təhsillə bağlı Cənub əsaslı əlçatan və əhatəli informasiya resursu təmin edir.[122] (http://www.eenet.org.uk)
- **“Praktikada inklüziv təhsil”**, Xüsusi Təhsildə İnkişaf üzrə Avropa Agentliyi ilə əməkdaşlıq yolu ilə hazırlanıb (http://www.inclusive-education-in-action.org/iea/index.php?menuid=59)
- **"Source"** inkişaf və humanitar kontekstlərdə əlillik və inklüziv təhlilə bağlı məlumatların idarə edilməsi, istifadəsi və təsirini gücləndirmək üçün hazırlanmış onlayn resurs mərkəzidir. O, əsasən praktiki mütəxəssislər və elm adamlarının istifadəsi üçün nəzərdə tutulub. (http://www.asksource.info/)
- Öz resurslarınızı burada əlavə edin:

# Terminlərin izahlı lüğəti

**Əlilliyin xeyriyyə modeli** əlilliyi cəza və ya faciə kimi izah edir. Şəxsin rifahı Allahın və ya taleyin əllərindədir və əlilliyi olan şəxslərə yazıq, yararsız, asılı fərd, cəmiyyət üçün yük, ehtiyac içində olan və hətta təqsirkar şəxs kimi yanaşılır. Əlillikdən qurtuluş mərhəmət, sevgi və qayğı sayəsində ola bilər. *[Bu, UNİCEF-in hazırda əməl etdiyi model **deyil**.]*

**Uşaq Yönümlü Məktəblər** (UYM) UNİCEF-in uşaqyönümlü, inklüziv, təhlükəsiz və iştirakçılığa şərait yaradan məktəblərin təşviqi, dəstəklənməsi və qurulmasına yanaşmasıdır. Daha ətraflı məlumat üçün bax: http://www.unicef.org/cfs/index_19.htm.

**İcma əsaslı reabilitasiya** əlilliyi olan şəxslər və onların ailələri üçün həyat keyfiyyətinin artırılmasına, əsas ehtiyaclarının ödənilməsinə və inklüzivlik və iştirakın təmin edilməsinə yönəlir. Bu, əlilliyi olan şəxslərin təhsil, məşğulluq, tibbi və sosial xidmətlərdən istifadə etməsinə imkan yaradan çoxsahəli strategiyadır. İƏR əlilliyi olan şəxslər, onların ailələri və icmaları, müvafiq hökumət və qeyri-hökumət tibb, təhsil, peşə, sosial və digər xidmətlərin birgə səyləri vasitəsilə icra olunur.[123] Onun məqsədi icmadakı mövcud bilik, bacarıq və resursları artırmaq və onlardan istifadə etməkdir. İcma əsaslı reabilitasiyada əsas diqqət əlilliyi olan şəxslərin cəlb olunmasına yetirilsə də, ideal vəziyyətdə o, hamı üçün inklüzivliyi təşviq edən icma strategiyasıdır.[124] Daha ətraflı məlumat üçün: http://www.who.int/disabilities/cbr/en/.

**"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya** və onun Fakültativ Protokolu (A/RES/61/106) BMT-nin Nyu-Yorkda yerləşən Baş Qərargahında 13 dekabr 2006-cı ildə qəbul edilib və 30 mart 2007-ci ildə imzalanmaq üçün açıq elan edilib. Konvensiyanı həmin gün 82, dövlət fakültativ protokolu isə 44 dövlət imzalayıb və bir dövlət ratifikasiya edib. Bu, tarixdə açılış günündə ən çox imzalanan BMT konvensiyası oldu. Bu Konvensiya 21-ci əsrin ilk əhatəli insan hüquqları sazişidir və regional inteqrasiya təşkilatlarının imzalaması üçün açıq elan edilmiş ilk insan hüquqları konvensiyasıdır. Konvensiya 3 may 2008-ci ildə qüvvəyə minib.[125] Ətraflı məlumat üçün: http://www.un.org/disabilities/.

**"Uşaq hüquqları haqqında" Konvensiya** BMT-nin Baş Assambleyasının 20 noyabr 1989-cu il tarixli 44/25 nömrəli qətnaməsi ilə qəbul edilən və imzalanma, təsdiq və qoşulma üçün açıq elan edilən ilk beynəlxalq insan hüquqları konvensiyasıdır və 49-cu maddəyə uyğun olaraq 2 sentyabr 1990-cı ildə qüvvəyə minib. Uşaq dedikdə, müvafiq qanunla yetkinlik yaşının daha əvvəl əldə olunması istisna olmaqla, yaşı 18-dən aşağı olan hər bir insan nəzərdə tutulur. Daha ətraflı məlumat üçün bax: http://www.ohchr.org/EN/ProfessionalInterest/Səh s/CRC.aspx.

**Əlillik** şəxsin digərləri ilə bərabər əsasda cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularla ətraf mühitdəki müxtəlif maneələr arasındakı qarşılıqlı təsirin nəticəsidir.

**"Hamı üçün Təhsil"** hər bir uşağın və yetkinlik yaşına çatmış şəxsin yaxşı keyfiyyətli ilkin təhsil almasının təmin edilməsinə yönələn beynəlxalq hərəkat və öhdəlikdir. O, həm insan hüquqlarına, həm də təhsilin fərdlərin rifahı və milli inkişaf üçün mərkəzi rol oynamasına olan ümumi inama əsaslanır. O, ilk dəfə Tailandın Comtyen şəhərində 1990-cı ildə Hamı üçün Təhsil üzrə Dünya Konfransında qlobal diqqəti özünə cəlb etmişdir. Daha ətraflı məlumat üçün bax: http://www.un.org/en/globalissues/briefingpapers/efa/index.shtml

**İnsan hüquqlarına əsaslanan yanaşma** insan inkişafı prosesi üçün konseptual çərçivə olub, beynəlxalq insan hüquqları standartlarına normativ şəkildə əsaslanır və fəaliyyət baxımından insan hüquqlarının təşviqinə və müdafiəsinə yönəlir. O, inkişaf problemlərinin mərkəzində dayanan bərabərsizlikləri təhlil etməyə və ayrı-seçkiliyə yol verən təcrübələrin, inkişafa mane olan səlahiyyətlərin ədalətsiz bölgüsünün aradan qaldırılmasına yönəlir[126].

**Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı** şəxsin funksional fəallıq səviyyəsini onun sağlamlıq vəziyyəti, ətraf mühitdəki faktorlar və şəxsi faktorlar arasındakı dinamik qarşılıqlı təsir kimi izah edir.[127] O, funksional fəallığı və əlilliyi insanların orqanizminin funksiyaları və strukturları, insanların məşğul olduqları fəaliyyətlər və iştirak etdiyi həyat sahələri və ətraf mühitdə bu təcrübələrinə təsir edən amillərlə əlaqəli olan çoxölçülü konseptlər kim izah edir.

**İnklüziv qoşulma** - bu zaman ayrı-ayrı şagirdlərin fərqli ehtiyaclarını nəzərə almaq üçün məktəbdə mədəniyyətin, siyasətlərin və təcrübələrin dəyişdirilməsi zərurəti və bu imkana mane olan əngəllərin aradan qaldırılması öhdəliyi qəbul edilir.

**İnklüziv təhsil** "təlim, mədəniyyət və icmalarda iştirakın artırılması və təhsil sistemi daxilindəki və ondan qaynaqlanan təcridolunmanın azaldılması yolu ilə bütün təhsilalanların ehtiyaclarının müxtəlifliyinin nəzərə alınması və cavab tədbirlərinin görülməsi prosesidir. İnklüziv təhsil müvafiq yaş aralığına daxil olan bütün uşaqları əhatə edən gələcəyə ümumi baxış və dövlətin bütün uşaqlara təhsil vermək öhdəliyi əsasında məzmuna, yanaşmalara, struktur və strategiyalara dəyişiklik və modifikasiyaların edilməsini ehtiva edir."[128]

**İnteqrasiya** - bu zaman əlilliyi olan uşaqlar adekvat adaptasiya və ya dəstək olmadan (yaxud yetərli səviyyədə olmadan) ümumi təhsil sistemində çox zaman xüsusi siniflərdə, yaxud ümumi siniflərdə yerləşdirilir.

**Əlilliyin tibbi modeli** əlilliyi şəxsin malik olduğu və tibbi yardımla müalicə oluna biləcək sağlamlıq problemi kimi izah edir. Buna görə də, əlillik tibbi patologiyanın nəticəsidir. Əlilliyi olan fərdə müalicəyə ehtiyacı olan şəxs kimi yanaşılır və onun ağrı və əzablarının yüngülləşdirilməsi tibb mütəxəssisinin vəzifəsi hesab edilir *[Bu, UNİCEF-in hazırda əməl etdiyi model **deyil**.]*

**Minilliyin İnkişaf Məqsədləri** hədəf 2015-ci ilədək kəskin yoxsulluğun azaldılmasından İİV/QİÇS-in yayılmasına son qoymağa və universal ibtidai təhsilin təmin olunmasına qədər dəyişir və dünyanın bütün ölkələrinin və bütün aparıcı inkişaf təşkilatlarının razılaşdığı çərçivəni əmələ gətirir. Onlar dünyanın ən yoxsullarının ehtiyaclarını qarşılamaq üçün göstərilən misilsiz səyləri canlandırıb. Daha ətraflı məlumat üçün bax: .http://www un.org/millenniumgoals/

**Seqreqasiya** o zaman baş verir ki, uşaq qrupları malik olduqları fərqə görə məqsədli şəkildə əksəriyyətdən ayrılır. Məsələn, əlilliyi olan uşaqlar malik olduqları sağlamlıq pozuntusuna görə təsnifləndirilə və məhz həmin sağlamlıq pozuntusuna uyğun planlaşdırılmış məktəbdə yerləşdirilə bilər.

**Əlilliyin sosial modeli** əlilliyi konkret fiziki, əqli, hissi və ya psixi sağlamlıq məhdudiyyətləri ilə onu əhatə edən sosial və mədəni mühit arasındakı qarşılıqlı əlaqələrin nəticəsi kimi izah edir. Buna görə də, əlillik cəmiyyətdə mövcud olan münasibətlər və ətraf mühitlə bağlı olan və institusional xarakterli maneələrlə müşayiət olunan sosial-siyasi konsepsiya hesab edilir. Yalnız maneələr aradan qaldırıldıqda əlillik azaldıla bilər. *[Bu, UNİCEF-in hazırda əməl etdiyi modeldir.]*

**Dayanıqlı İnkişaf Məqsədləri** Rio+20 Konfransının əsas nəticələrindən biri oldu. Bu konfransda üzv dövlətlər Minilliyin İnkişaf Məqsədlərinə əsaslanan və 2015-ci ildən sonrakı inkişaf gündəliyi ilə uzlaşan məqsədlər qrupunun hazırlanması prosesinə start vermək barədə razılığa gəldi.[129] Daha ətraflı məlumat üçün: http://sustainabledevelopment.un.org.

# Əlavə 1: Əsas beynəlxalq alətlər və digər sənədlər

1948-ci il Universal İnsan Hüquqları Bəyannaməsi - Maddə 26

1960-cı il UNESCO-nun "Təhsildə ayrı-seçkiliklə mübarizə haqqında" Konvensiyası - 1, 3 və 4-cü maddələr

1965-ci il "İrqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında" beynəlxalq konvensiya – Maddə 5.

1966-cı il "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt – Maddə 13

1966-cı il "Mülki və Siyasi Hüquqlar haqqında" Beynəlxalq Pakt" – Maddə 18 və 19.

1973-cü il "Məşğulluq üçün minimum yaş haqqında" İLO Konvensiyası – Maddə 7

1979-cu il "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya - Maddə 10

1982-ci il "Əlilliyi olan şəxslərə dair Ümumdünya Fəaliyyət Proqramı", icra üçün təkliflər, milli fəaliyyət, hissə 2

1989-cu il "Uşaq hüquqları haqqında" Konvensiya, 23, 28 və 29-cu maddələr

1989-cu il "Yerli və qəbilə xalqları haqqında" İLO Konvensiyası – Maddələr 26, 27, 28, 29, 30 və 31.

1990-cı il "Hamı üçün təhsil haqqında Ümumdünya Bəyannaməsi", Comtyen

1993-cü il "Əlilliyi olan şəxslər üçün imkanların bərabərləşdirilməsi haqqında" Standart Qaydalar

1994-cü il "Xüsusi təhsil haqqında Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi"

1999-cu il "Uşaq əməyinin ən kəskin formaları haqqında" İLO Konvensiyası – Maddə 7

1999-cu il Salamanka Bəyannaməsinin 5 illik icmalı

2000-ci il Dünya Təhsil Forumunun Fəaliyyət Çərçivəsi, Dakar

2000-ci il Yoxsulluğun azaldılması və inkişafa yönələn Minilliyin İnkişaf Məqsədləri

2002-ci il EFA Qlobal Monitorinq Hesabatı: EFA - dünya plana uyğun irəliləyirmi?

2004-cü il EFA Qlobal Monitorinq Hesabatı: Gender və Hamı üçün Təhsil - keyfiyyətə sıçrayış

2005-ci il EFA Qlobal Monitorinq Hesabatı: Hamı üçün Təhsil - keyfiyyət mütləqdir

2006-cı il EFA Qlobal Monitorinq Hesabatı: Həyat üçün savad

2006-cı il "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya

2007-ci il EFA Qlobal Monitorinq Hesabatı: Güclü təməllər - erkən uşaqlıq dövründə qayğı və təhsil

2008-ci il EFA Qlobal Monitorinq Hesabatı: 2015-ciilədək hamı üçün təhsil - bacaracağıqmı?

# İstinadların siyahısı


**1.** ÜST, Dünya Bankı. (2011) *Əlillik üzrə Ümumdünya Hesabatı*. Cenevrə, Ümumdünya Səhiyyə Təşkilatı. http://www.who.int/disabilities/ world_report/2011/en/ [baxılıb: 06 Avqust 2014].

**2.** https://www.globalpolicy.org/component/content/article/211/44325.html

**3.** Pearn,J. (2000). Müharibənin fəsadları: uşaq xəsarətləri və ölümləri. Uşaqlıq dövründə ishal və pis qidalanma ilə bağlı müasir məsələlər. Z. A. Bhutta. Karaçi, Pakistan, Oxford University Press: 334–343.

**4.** ÜST, Dünya Bankı. (2011) *Əlillik üzrə Ümumdünya Hesabatı*. Cenevrə, Ümumdünya Səhiyyə Təşkilatı. http://www.who.int/disabilities/ world_report/2011/en/ [baxılıb: 25 Iyul 2014].

**5.** BMT, http://www.un.org/disabilities/default.asp?navid=13&pid=1514 [baxılıb: 5 Avqust 2014].

**6.** UNICEF, http://www.unicef.org/disabilities/index_65316.htm [baxılıb: 25 Iyul 2014].

**7.** UNESCO (2009) *Əlilliyi olan uşaqlar üçün inklüziv təhsilə doğru: Təlimat*. Banqkok, 2009, s.5, .http://www uis.unesco.org/Library/Documents/disabchild09-en.pdf [baxılıb: 25 Iyul 2014].

**8.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma.* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**9.** Filmer, D. (2008), İnkişaf Etməkdə olan Ölkələrdə Əlillik, Yoxsulluq və Məktəb təhsili: 14 ev təsərrüfatı sorğusunun nəticələri. *Dünya Bankının İqtisadi İcmalı*, cild. 22, № 1, 2008, s.141-163, istinad: ÜST, Dünya Bankı. (2011) *Əlillik üzrə Ümumdünya Hesabatı*. Cenevrə.

**10.** UNESCO (2005) *İnklüzivlik üçün rəhbər prinsiplər: hamı üçün təhsilə çıxışın təmin edilməsi*, Paris.

**11.** UNESCO (1994) Xüsusi Təhsil haqqında Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi, s.iii, .http://www unesco.org/education/pdf/SALAMA_E.PDF [baxılıb: 27 Iyul 2014].

**12.** Təhsil üzrə Qlobal Tərəfdaşlıq, http://www.globalpartnershis.org/focus-areas/children-with-disabilities [baxılıb: 25 Iyul 2014].

**13.** Filmer, D. (2008), İnkişaf Etməkdə olan Ölkələrdə Əlillik, Yoxsulluq və Məktəb təhsili: 14 ev təsərrüfatı sorğusunun nəticələri. *Dünya Bankının İqtisadi İcmalı*, cild. 22, № 1, 2008, s.141-163, istinad: ÜST, Dünya Bankı. (2011) *Əlillik üzrə Ümumdünya Hesabatı*. Cenevrə.

**14.** UNESCO (2010) *EFA Qlobal Monitorinq Hesabatı 2010: Təcrid olunanların əhatə olunması*, Paris, s. 184, .http://unesdoc.unesco org/images/0018/001866/186606E.pdf [baxılıb: 25 Iyul 2014].

**15.** UNESCO (2010) *EFA Qlobal Monitorinq Hesabatı 2010: Təcrid olunanların əhatə olunması*, Paris, s. 184, .http://unesdoc.unesco org/images/0018/001866/186606E.pdf [baxılıb: 25 Iyul 2014]; Loeb, M. E. and Arne H. (2004) Eide, eds., Tanzaniya Birləşmiş Respublikasının Hökuməti (2009) *2008 Tanzaniya Əlillik Sorğusu*, Milli Statistika Bürosu, Dar es Salaam, Tanzaniya Birləşmiş Respublikası, s. 19, nbs.go.tz/tnada/index.php/ddibrowser/5/ download/24 [baxılıb: 25 Iyul 2015].

***16.*** UNESCO (2013/4) *EFA Qlobal Monitorinq Hesabatı 2013/4 "Tədris və təlim: hamı üçün keyfiyyətli təlimə nail olmaq"*

i. http://unesdoc.unesco.org/images/0022/002256/225660e.pdf

***17.*** UNESCO (2013/4) *EFA Qlobal Monitorinq Hesabatı 2013/4 "Tədris və təlim: hamı üçün keyfiyyətli təlimə nail olmaq"*

i. http://unesdoc.unesco.org/images/0022/002256/225660e.pdf

**18.** UNICEF (2013) *Dünya Uşaqlarının Vəziyyəti Hesabatı*. Nyu-York, http://www.unicef.org/sowc2013/ [baxılıb: 25 Iyul 2014].

**19.** Filmer, D. (2005) *İnkişaf etməkdə olan ölkələrdə əlillik, yoxsulluq və məktəb təhsili: 11 ev təsərrüfatı sorğusunun nəticələri*, Dünya Bankı İqtisadi İcmalı, 22(1): 141, http://siteresources.worldbank.org/SOCIALPROTECTION/Resources/SP-Discussion-papers/Disability-DP/0539.pdf [baxılıb: 25 Iyul 2014].

**20.** UNESCO (2010) *EFA Qlobal Monitorinq Hesabatı 2010: Təcrid olunanların əhatə olunması*, Paris, s. 184, .http://unesdoc.unesco org/images/0018/001866/186606E.pdf [baxılıb: 25 Iyul 2014].

**21.** UNICEF (2013) *Əlilliyi olan uşaqlar və gənclər. Faktlar*. Nyu-York: UNICEF-in Baş Qərargahı.

**22.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**23.** UNICEF (2013) *Əlilliyi olan uşaqlar və gənclər. Faktlar*. Nyu-York: UNICEF-in Baş Qərargahı.

**24.** UNICEF (2013) *Əlilliyi olan uşaqlar və gənclər. Faktlar*. Nyu-York: UNICEF-in Baş Qərargahı.

**25.** UNESCO və UNICEF (2013) *2015-ci ildən sonrakı dövr üçün gündəlikdə təhsilin prioritetləşdirilməsi: 2015-cildən sonrakı İnkişaf Gündəliyində Təhsilə dair Qlobal Tematik Məsləhətləşmə Hesabatı*, UNESCO və UNICEF, sentyabr 2013. ss.30.

**26.** Uyğunlaşdırılıb - "Əlilliyi olan şəxslərin təhsil hüququ: inklüziv təhsilə hüquqlara əsaslanan yanaşma", UNICEF-in MŞA/MDB Regional Ofisi, 2011.

**27.** BMT (2006) *"Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"*, Nyu-York, Article 1.

**28.** ÜST, http://www.who.int/classifications/icf/en/ [baxılıb: 27 Iyul 2014].

**29.** UNICEF (2013) Əlillik üzrə Situativ Təhlillər üçün Rəhbər Qaydalar, Nyu-York, səh  2.

**30.** BMT Baş Assambleyası, *"Uşaq hüquqları haqqında" Konvensiya*, 20 noyabr 1989, BMT, Saziş seriyası, cild 1577,

i. s. 3, keçid: lhttp://www.refworld.org/docid/3ae6b38f0.htm [baxılıb: 19 dekabr 2014]

**31.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**32.** BMT (2006) Uşaq Hüquqları üzrə Komitə, *Ümumi Şərt №9,: Əlilliyi olan uşaqların hüquqları*, CRC/C/GC/9, Fev 2007. CRC/C/GC/9/Corr.1

**33.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**34.** BMT (1989c) "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya, Maddə 10c: www.un.org/ womenwatch/daw/cedaw/text/econvention.htm [baxılıb: 3 Avqust 2014] istinad: Stubbs (2008) s. 19-20.

**35.** Balescut, J and Eklindh, K, Savadlılıq və inkişaf məhdudiyyətləri olan şəxslər: Niyə və necə?

**36.** BMT , lhttp://www.un.org/millenniumgoals/education.shtm [baxılıb: 27 Iyul 2014].

**37.** BMT , lhttp://www.un.org/millenniumgoals/education.shtm [baxılıb: 30 Iyul 2014].

**38.** BMT (2014). *"Minilliyin İnkişaf Məqsədləri" hesabatı*, Nyu-York, səhifə 16, http://www.un.org/ millenniumgoals/2014%20MDG%20report/MDG%202014%20English%20web.pdf [baxılıb: 10 Avqust 2014]

**39.** UNESCO Statistika İnstitutu (2014) Siyasət sənədi 14, Fakt vərəqəsi 28 http://www.uis.unesco.org/Education/Documents/ fs-28-out-of-school-children-en.pdf [baxılıb: 10 Avqust 2014]

**40.** UNESCO Statistika İnstitutu (2014) Siyasət sənədi 14, Fakt vərəqəsi 28 http://www.uis.unesco.org/Education/Documents/ fs-28-out-of-school-children-en.pdf [baxılıb: 10 Avqust 2014]

**41.** UNESCO (2013/2014) "Hamı üçün təhsil" - Qlobal Monitorinq Hesabatı, Paris: .http://unesdoc.unesco.org/images/0022/002256/225660e pdf [baxılıb: 10 Avqust 2014]

**42.** Miles, S, və Singal, N, (2010) Hamı üçün Təhsil və inklüziv təhsilin müzakirəsi: münaqişə, ziddiyyət, yoxsa imkan?,

i. *International Journal of Inclusive Education*, 1464-5173, Cild 14, Buraxılış 1, ss. 1 – 15.

**43.** UNESCO və UNICEF (2013) *2015-ci ildən sonrakı dövr üçün gündəlikdə təhsilin prioritetləşdirilməsi: 2015-cildən sonrakı İnkişaf Gündəliyində Təhsilə dair Qlobal Tematik Məsləhətləşmə Hesabatı*, UNESCO və UNICEF, sentyabr 2013. ss.30.

**44.** UNESCO (1994) Xüsusi təhsil üzrə Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi .http://www.unesco org/education/pdf/SALAMA_E.PDF, [baxılıb: 27 Iyul 2014].

**45.** Miles, S, və Singal, N, (2010) Hamı üçün Təhsil və inklüziv təhsilin müzakirəsi: münaqişə, ziddiyyət, yoxsa imkan?,

i. *International Journal of Inclusive Education*, 1464-5173, Cild 14, Buraxılış 1, ss. 1 – 15.

**46.** UNICEF, lhttp://www.unicef.org/education/bege_61659.htm [baxılıb: Iyul 21, 2014].

47. UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

48. Stubbs, S (2000) *Xüsusi, inteqrativ və inklüziv təhsil - "Kvadrat dəliklər"*: Save the Children, http://www.eenet.org.uk/resources/docs/square_holes.php, [baxılıb: 15 Avqust 2014].

49. Armstrong, F., Armstrong, D. and Barton, L. (1999) *İnklüziv təhsil: Siyasət, kontekstlər və müqayisəli perspektivlər*. S.David Fulton Publishers, s. 140.

50. UNICEF (2013) *"Dünya uşaqlarının vəziyyəti" hesabatı.* Nyu-York, http://www.unicef.org/sowc2013/ [baxılıb: 25 Iyul 2014].

51. Helmstetter, E., Curry, C. A., Brennan, M., & Sampson-Saul, M. (1998). Ağır əlillikləri olan şagirdlərin ümumi və xüsusi təhsil sinif otaqlarının müqayisəsi. Əqli gerilik və inkişaf əlillikləri üzrə təhsil və təlim, 33, 216-227.

52. Lamb, B. (2009) Sorğu: Xüsusi təhsil ehtiyacları və valideyn inamı, Birləşmiş Krallıq. .http://www.dyslexiaaction.org uk/files/dyslexiaaction/the_lamb_inquiry.pdf [baxılıb: 10 Avqust 2014].

53. Mitchell, D. (2010) Məqsədəuyğun təhsil: Təhsillə bağlı xüsusi ehtiyacları olan şagirdlərin təhsili sahəsində beynəlxalq tendensiyalara baxış. Christchurch: University of Canterbury.

54. Inclusion InterAmericana, (2000). Mərkəzi Amerikada inklüziv təhsilin təşviqi üzrə strategiyalar. Mərkəzi Amerikanın Təhsil Nazirləri Şurası üçün müzakirə sənədi. Antiqua, Qvatemala.

55. UNESCO (2005) *İnklüzivlik üçün rəhbər prinsiplər: hamı üçün təhsilə çıxışın təmin edilməsi*, Paris.

56. Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.8.

57. BMT (2006) *"Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"*, Nyu-York, Maddə 24.

58. BMT (2006) *"Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"*, Nyu-York, Maddə 30.

59. Uyğunlaşdırılıb: Skidmore D (2004) İnklüziya: məktəb inkişafının dinamikası, Open University Press, London, səh 112- 127 istinad: UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

60. Ainscow, M (ed) (1991) Hamı üçün effektiv məktəblər, London: Fulton.

61. Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.74.

62. Odden, A. and Picus, L. (2000). *Məktəb maliyyəsi: siyasət perspektivi (2-ci nəşr*) Nyu-York: McGraw-Hill.

63. Capper, C, Frattura, E and Keyes, M (2000). *Bacarıqlarından asılı olmayaraq bütün şagirdlərin ehtiyaclarının qarşılanması: liderlərin inklüziv cəlb etmə ilə məhdudlaşmaması*. Newbury Park, CA: Corwin Press.

64. Jonsoon, T (1995). İnklüziv təhsil. İnkişaf etməkdə olan ölkələrdə səhiyyə xidməti, 2/95, vol.9., .http://wwwl disabilityworld.org/05-06_01/children/inclusiveed.shtm [baxılıb: 3 Avqust 2014]

65. UNICEF (2007) Bəzilərinə digərlərindən daha çox təhsil?, Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi, s 64-70

66. UNICEF (2011) Qaraçıların təhsil hüququ: Mövqe sənədi. Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi, s 19-20

67. UNICEF Innocenti Elmi-Tədqiqat Mərkəzi (2009) Innocenti Social Monitor 2009. Uşaqların rifahı yolayrıcında: Mərkəzi və Şərqi Avropada və MDB-də təkamül edən çətinliklər, səh 23-24; 26-28; 31-33; 36-37.

68. UNICEF (2005) MŞA/MDB və Baltikyanı dövlətlərdə uşaqlar və əlillik keçid mərhələsində, səh 39-42.

69. ÜST, UNESCO, ILO & IDDC (2011) *İcma əsaslı reabilitasiya üzrə təlimat: Təhsil Komponenti*, Cenevrə, s.2, http://whqlibdoc.who.int/publications/2010/9789241548052_education_eng.pdf [baxılıb: 3 Avqust 2014]

70. Porter, G. (1995). 'Məktəb təhsilinin təşkili: inklüzivlik yolu ilə çıxış imkanı və bərabərliyə nail olmaq, *Prospects,* 25(2), 299–309.

71. UNESCO (2009) Əlilliyi olan uşaqlar üçün inklüziv təhsilə doğru: Təlimat. Banqkok, 2009, s.5, .http://www uis.unesco.org/Library/Documents/disabchild09-en.pdf [baxılıb: 25 Iyul 2014].

**72.** MacArthur, J. (2009). Birlikdə daha yaxşı öyrənmək: Yeni Zelandiya məktəblərində inklüziv təhsilə doğru çalışmaq. http://www.ihc.org.nz/wp-content/uploads/learning-better-together.pdf [baxılıb: 10 Avqust 2014]

**73.** Wang, MC and Baker, ET (1985-1986). Ümumi proqramlar: tərtibat xüsusiyyətləri və effektlər. *Journal of Special Education*, 19, 503-521.

**74.** Mitchell, D. (2010). *Məqsədəuyğun təhsil: Təhsillə bağlı xüsusi ehtiyacları olan şagirdlərin təhsili sahəsində beynəlxalq tendensiyalara baxış.* Christchurch: Canterbury Universiteti. http://www.educationcounts.govt.nz/__data/assets/pdf_file/0016/86011/ Mitchell-Review-Final.pdf [baxılıb: 10 Avqust 2014]

**75.** UNESCO, http://www.unesco.org/new/en/education/themes/strengthening-education-systems/inclusive-education/10-questions-on-inclusive-quality-education/, [baxılıb: 15 Avqust 2014]

**76.** Lewis, A. and Norwich, B. (2005). (Eds.) *Xüsusi uşaqlar üçün xüsusi tədris: inklüzivlik üçün pedaqogika?*. Maidenhead: Open University Press.

**77.** Helmstetter, E., Curry, C. A., Brennan, M., & Sampson-Saul, M. (1998). *Ağır əlillikləri olan şagirdlərin ümumi və xüsusi təhsil sinif otaqlarının müqayisəsi. Əqli gerilik və inkişaf əlillikləri üzrə təhsil və təlim*, 33, 216-227.

**78.** Fisher, D and Meyer, LH (2002) *İnklüziv təhsil proqramlarında iştirak edən uşaqlar üçün iki ildən sonra inkişaf və sosial səriştə. Journal of the Association for Persons with Severe Handicaps*, 27(3), 165-174.

**79.** UNESCO (2005) *İnklüzivlik üçün rəhbər qaydalar: hamı üçün təhsilə çıxışın təmin edilməsi*, Paris.

**80.** Fisher, D and Meyer, LH (2002) *İnklüziv təhsil proqramlarında iştirak edən uşaqlar üçün iki ildən sonra inkişaf və sosial səriştə. Journal of the Association for Persons with Severe Handicaps*, 27(3), 165-174.

**81.** Favazza, P and Odom, S (1997) Bağça yaşlı uşaqların əlilliyi olan şəxslərə qarşı müsbət münasibətlərinin təşviqi.

i. *Müstəsna uşaqlar*, 63(3), 405-418.

**82.** Steinfeld, E (2005) "Hamı üçün təhsil. Əlçatanlığın xərcləri." Qeydlər, Dünya Bankı, Vaşinqton.

**83.** Filmer D (2005) İnkişaf etməkdə olan ölkələrdə əlillik, yoxsulluq və məktəb təhsili: 11 ev təsərrüfatı sorğusundan nəticələr, SosialSocial Protection Discussion Paper Series, Dünya Bankı

**84.** Metts, R (2004) *Əlillik və inkişaf. Əlillik və İnkişaf Tədqiqat Gündəliyi üzrə görüş üçün məlumat sənədi*, 16 noyabr, 2004, Dünya Bankının qərargahı, Vaşinqton. s.9.

**85.** Banqladeş Xalq Respublikası (2009). Banqladeş Xalq Respublikasına əlillik və risk altında olan uşaqlarla bağlı layihə üçün təklif olunan kreditə dair layihə qiymətləndirməsi sənədi. Vaşinqton, Dünya Bankı, 2008, http://tinyurl.com/yhuqa6u [baxılıb: 19 oktyabr] istinad: Əlillik üzrə Dünya Hesabatı (2011) s.208.

**86.** UNESCO (2003) İnklüziv təhsil üzrə açıq sənəd: İdarəçilər və rəhbərlər üçün dəstək materialları, Paris. http://unesdoc.unesco.org/images/0013/001321/132164e.pdf [baxılıb: 3 Avqust 2014].

**87.** İƏİT (1999) *İnklüziv təhsil işi: Əlilliyi olan uşaqlar ümumi məktəblərdə*, Paris.

**88.** Evans, P (2008) *İnklüziv təhsillə bağlı faktlar və çətinliklər*, 1/2008, Inclusion Europe, Brussels.

**89.** UNICEF (2013) *"Dünya uşaqlarının vəziyyəti" hesabatı.* Nyu-York, http://www.unicef.org/sowc2013/ [baxılıb: 25 Iyul 2014].

**90.** Save the Children, The Atlas Alliance və EENET (2002) Məlumat vərəqəsi: *Hamı üçün məktəblər: əlil uşaqların və gənclərin təhsilə cəlb olunması*, http://www.eenet.org.uk/resources/docs/schools_for_all_poster.pdf [baxılıb: 2 Avqust 2014]

**91.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**92.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**93.** Tanzaniya Birləşmiş Respublikası (2008). Təhsil Sektorunun İnkişafı Proqramı 2008-2017, Yenidən baxılmış.

**94.** UNICEF (2013) *"Dünya uşaqlarının vəziyyəti" hesabatı.* Nyu-York, http://www.unicef.org/sowc2013/ [baxılıb: 25 Iyul 2014].

**95.** UNICEF (2014). İnklüziv Təhsil Şəbəkəsi – Kritik təhlil (dərc olunmayıb)

**96.** Able Child Africa, http://ablechildafrica.org/our-partners/littlerock/, [baxılıb: 27 Iyul 2014]

**97.** UNICEF (2014). İnklüziv Təhsil Şəbəkəsi – Kritik təhlil (dərc olunmayıb)

**98.** http://www.unicef.org/montenegro/15868.html.

**99.** Singal, N (2004) *Hindistan kontekstində inklüziv təhsilin tədqiqi*. Doktorluq dissertasiyası, Kembric Universiteti.

**100.** UNICEF (2012) *Əlilliyi olan uşaqların təhsil hüququ: İnklüziv təhsilə insan hüquqlarına əsaslanan yanaşma* Cenevrə: UNICEF-in Mərkəzi və Şərqi Avropa və MDB üzrə Regional Ofisi.

**101.** Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.38.

**102.** Stubbs, S. (1995). 'Lesoto Milli İnteqrativ Təhsil Proqramı: İcra üzrə keys təhlili'. Səh 95- 97, http://www.eenet.org.uk/resources/docs/Lesotho_National_IEP_Stubbs_thesis.doc

**103.** Stubbs, S. (1995). 'Lesoto Milli İnteqrativ Təhsil Proqramı: İcra üzrə keys təhlili'. Səh 84, http://www.eenet.org.uk/resources/docs/Lesotho_National_IEP_Stubbs_thesis.doc

**104.** Kisanji, J (1999) 'İnklüziv təhsilin tarixi və nəzəri əsasları', Mançester: CEN, Mançester Universiteti – istinad gətirilib: Stubbs (2008) s.27.

**105.** UNICEF, http://www.unicef.org/about/who/index_mission.htm [baxılıb: 26 Iyul 2014].

**106.** UNICEF, http://www.unicef.org/disabilities/ [baxılıb: 27 Iyul 2014].

**107.** BMT (2006) *"Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"*, Nyu-York, Maddə 1.

**108.** UNICEF, http://www.unicef.org/disabilities/ [baxılıb: 27 Iyul 2014].

**109.** UNICEF, http://www.unicef.org/esaro/5481_child_friendly_schools.html, [baxılıb: 21 Iyul 2014].

**110.** UNICEF, http://www.unicef.org/esaro/5481_child_friendly_schools.html, [baxılıb: 21 Iyul 2014].

**111.** UNICEF, http://www.unicef.org/esaro/5481_child_friendly_schools.html, [baxılıb: 21 Iyul 2014].

**112.** UNESCO, (1994) Xüsusi Təhsil Haqqında 1994-cü il Salamanka Bəyannaməsi və Fəaliyyət Çərçivəsi, s.iii, http://www.unesco.org/education/pdf/SALAMA_E.PDF [baxılıb: 27 Iyul 2014].

**113.** Sightsavers (2011) *İnklüziv təhsilin reallığa çevrilməsi*, Siyasət Sənədi, London, s.9, http://www.sightsavers.net/in_depth/policy_and_research/education/16079_Sightsavers%20IE%20Policy%20Paper%202011%20-%20FINAL.pdf [baxılıb: 27 Iyul 2014].

**114.** UNICEF (2013) Əlavə: UNİCEF-in 2014-2017 Strateji Planının köməkçi sənədi. *BMT-nin Uşaq Fondunun İcraçı Şurası, İkinci ümumi sessiya 2013*, Nyu-York. E/ICEF/2013/21/Add.1, http://www.unicef.org/about/execboard/_files/2013-21-Add1-Annex-UNICEF_Strategic_Plan-ODS-English.pdf [baxılıb: 22 Iyul 22, 2014].

**115.** Təhsil naminə Qlobal Tərəfdaşlıq (2013) *GPE Faktlar*, http://www.globalpartnershis.org/content/what-gpe [baxılıb: 3 Avqust 2014]

**116.** Mariga, L, McConkey, R və Myezwa, H (2014) *Aşağı gəlirli ölkələrdə inklüziv təhsil*, s.66 .http://www.eenet.org.uk/resources/docs/Inclusive_Education_in_Low_Income_Countries.pdf [baxılıb: 3 Avqust 2014].

**117.** Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.8.

**118.** Sightsavers (2011) *İnklüziv təhsilin reallığa çevrilməsi*, Siyasət Sənədi, London, s.4, http://www.sightsavers.net/in_depth/policy_and_research/education/16079_Sightsavers%20IE%20Policy%20Paper%202011%20-%20FINAL.pdf [baxılıb: 27 Iyul 2014].

**119.** UNESCO (2014) İnklüziv təhsil barədə 10 sual, Geneva, http://www.unesco.org/new/en/education/themes/strengthening-education-systems/inclusive-education/10-questions-on-inclusive-quality-education/ [baxılıb: 3 Avqust 2014]

**120.** Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.110.

**121.** Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.34.

**122.** ÜST, http://www.who.int/disabilities/cbr/en/ [baxılıb: 3 Avqust 2014]

**123.** Stubbs, S (2008) *İnklüziv təhsil: Resurslar məhdud olduqda*, Oslo: The Atlas Alliance, s.27.

**124.** BMT , http://www.un.org/disabilities/default.asp?navid=15&pid=150 [baxılıb: 3 Avqust 2014]

**125.** UNICEF, http://www.unicef.org/policyanalysis/rights/ [baxılıb: 3 Avqust 2014]

**126.** ÜST, http://www.who.int/classifications/icf/en/ [baxılıb: 27 Iyul 2014].

**127.** UNESCO (2005) *İnklüziv təhsil üçün rəhbər qaydalar: hamı üçün təhsilə çıxışın təmin edilməsi*, Paris.

**128.** BMT, http://sustainabledevelopment.un.org/?menu=1300 [baxılıb: 5 Avqust 2014].

